RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 33 (8626) ŞƏNBƏ, 13 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan yeni quruculuq mərhələsinə qədəm qoyur

## İlham Əliyev bu istiqamətdəki prioritetləri müəyyənləşdirdi

### Düşünülmüş siyasətin yeni təzahürü

*Prezident İlham Əliyev Azərbaycana rəhbərliyə başladığı ilk günlərdən düşünülmüş, davamlı və uzaqgörən siyasət yürüdüb.*

*Məhz bu siyasət tarixinin ən qüdrətli Azərbaycanının yaranmasına, Vətən müharibəsində Ermənistanın darmadağın edilərək təsliminə, şanlı zəfər sayəsində ərazilərimizin işğaldan azad edilməsinə səbəb oldu!*

**Prezident İlham Əliyev ölkəmizin bu günü, sabahı və gələcəyi ilə bağlı görüləcək işləri müəyyənləşdirərək nəyi, nə vaxt və necə etməyi də hamıdan yaxşı bilən və həyata keçirəndir!**

**Biz bunun müstəqil dövlətin inkişafı, müharibəyə hazırlıq və hərbi əməliyyatların gedişində atılan addımların ardıcıllığı sayəsində şahidi olduq!**

Artıq Vətən müharibəsi şanlı qələbə ilə başa çatıb, erməni faşistləri torpaqlarımızdan qovulub!

Onlardan bizə dağıdılmış kənd və şəhərlər, viran qoyulmuş yaşayış məntəqələri qalıb.

**Dəmir yumruğu daim hazır vəziyyətdə saxlayan Azərbaycan indi Qarabağın dirçəldilməsi, ölkənin gələcək inkişafı ilə bağlı məsələlərin həlli ilə məşğuldur.**

**Bu məqamda da nəyi, nə vaxt və necə etməyi cənab İlham Əliyev müəyyənləşdirdi!**

*Dövlət başçısının 2 fevral 2021-ci ildə imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin təsdiq edilməsi haqqında" Sərəncam, əslində, ölkəmizin növbəti on ildə görəcəyi nəhəng işlərin yığcam ifadəsidir.*

#### YENİ STRATEJİ DÖVR

2020-ci il dünya üçün çox uğursuz il oldu!

COVID-19-un gətirdiyi bəlalar təkcə insanların sağlamlığına ciddi zərbə vurması, bir çoxlarının həyatına son qoyması ilə nəticələnmədi.

Dövlətlər pandemiyanın xüsusi rejiminə uyğun olaraq sərhədlərini bağlayıb özlərinə qapandılar, iqtisadi əlaqələr son dərəcə zəiflədi, turizm və xidmət sektoru iflic vəziyyətinə düşdü, hər bir dövlətdə, bütünlükdə dünya üzrə ümumi daxili məhsul istehsalı ciddi şəkildə aşağı düşdü.

Dünyanın bir parçası olan Azərbaycanda da iqtisadi zəifləmə müşahidə olundu.

Lakin ümumi daxili məhsul istehsalı başqa ölkələrlə müqayisədə nisbətən az miqdarda azalsa da, qeyri-neft sektorunda əksi baş verdi, yüksəliş 12,5 faiz oldu!

Bu hələ hamısı deyil!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə böyük Zəfərin qazanılması, əslində, 2020-ci ili Azərbaycan xalqı və dövləti üçün ən uğurlu ilə, möhtəşəm qələbə ilinə çevirdi!**

**Bəli, dünya üçün nəhs il Azərbaycan üçün tarixi Zəfər ili oldu!**

*Üstəlik, Azərbaycan irəlicədən görülən tədbirlər və düzgün qurulan mübarizə sayəsində pandemiya dövrünü də müvəffəqiyyətlə keçirməkdədir.*

*İndi Azərbaycan yeni strateji dövrə qədəm qoyur!*

*Qələbəmizi möhkəmləndirən, iqtisadiyyatımızı daha da gücləndirəcək və xalqımızın sosial rifahını yeni səviyyəyə qaldıracaq məsul dövrə!*

COVID-19 pandemiyasından və Vətən müharibəsindən uğurlu çıxış yeni dövrün vəzifələrinin də yüksək səviyyədə icrasına möhkəm əsaslar yaradır.

*Ardı 3-cü səh.*

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin və Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş siyahıda nəzərdə tutulan aşağıdakı dövlət müəssisələri Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilsin:

1.1. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti;
1.2. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti;
1.3. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti;
1.4. Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2021-ci il*

◆ **Milli Məclisin iclasında**

## Xüsusi nümayəndəlik institutunun hüquqi bazası yaradılır

**Fevralın 12-də parlamentin yaz sessiyasında növbəti plenar iclası keçirildi. Spiker Sahibə Qafarova iclası açdıqdan sonra 15 məsələdən ibarət gündəlik təsdiqləndi.**

Əvvəlcə cari məsələlərlə bağlı çıxışlar edildi. Komitə sədrləri Zahid Oruc, Musa Quliyev, deputatlardan Əli Məsimli, Naqif Həmzəyev, Azay Quliyev, Aydın Mirzəzadə, Cavanşir Paşazadə, Fazil Mustafa, Tamam Cəfərova bir sıra məsələlərə münasibət bildirdilər, təkliflərlə çıxış etdilər.

Sonra gündəlikdəki qanun layihələrinin müzakirəsi başladı. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə layihə ilə bağlı Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Bildirdi ki, dəyişiklik Prezident İlham Əliyevin 19 yanvar 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" Fərmanı ilə əlaqədardır. Qeyd olundu ki, Azərbaycan torpaqları işğaldan azad ediləndən sonra həyata keçirilən idarəetmə islahatlarının ən vacibi həmin ərazilərdə xüsusi nümayəndəlik institutunun təsis olunmasıdır. Ötən qısa zaman ərzində xüsusi nümayəndəlik institutunun Əsasnaməsi hazırlanıb və təsdiq olunub. Xüsusi nümayəndəliyin strukturunu və ştat vahidini Azərbaycan Prezidenti müəyyən edir. Bu qurumun işçiləri Prezident Administrasiyasının əməkdaşları və dövlət qulluqçusu sayılırlar. Məhz bu baxımdan "Dövlət qulluğu haqqında" qanuna yeni anlayışlar əlavə olunur.

Əli Hüseynli qeyd etdi ki, bununla əlaqədar olaraq qanunun 11-ci maddəsinə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin vəzifələri, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin müavinlərinin vəzifələri və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərində mütəxəssislərin vəzifələri məzmununda əlavələr edilir.

Müzakirələr zamanı bu məsələ ilə bağlı deputatlardan Məlahət İbrahimqızı, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Musa Qasımlı, Fazil Mustafa, Kamran Bayramov, Aydın Mirzəzadə, komitə sədri Zahid Oruc rəy və təkliflərini bildirdilər.

*Ardı 2-ci səh.*

## Dünya "Cənub qaz dəhlizi"nin möhtəşəm layihə olduğunu bir daha təsdiqlədi

### Layihənin Məşvərət Şurasının iclasında bu vurğulanmaqla yanaşı, perspektivlər və çağırışlar ətrafında fikir mübadiləsi də aparıldı

**"Cənub qaz dəhlizi" Məşvərət Şurasının ilk iclası Bakıda 2015-ci ildə keçirildi. Beləliklə, Azərbaycan ildə bir dəfə olmaqla, bu toplantıya 6 dəfə dalbadal evsahibliyi etdi.**

Bu da təsadüfi deyil, çünki "Cənub qaz dəhlizi" başlanğıcını Azərbaycandan götürür, Xəzərin ölkəmizə məxsus sektorundan çıxarılan mavi yanacağı nəql edir, nəhayət, bu qlobal layihənin təşəbbüskarı və aparıcı qüvvəsi də bizik.

Məşvərət Şurasının 7-ci toplantısının videokonfrans formatında keçirilməsi isə koronavirus pandemiyasının yaratdığı tələblərdən irəli gəlir. Bununla belə, iclasda əvvəlki illərdə olduğundan da çox ölkə iştirak edib. Toplantıda 18 ölkənin, 19 şirkətin və 5 aparıcı beynəlxalq maliyyə qurumunun nümayəndələri videoformatda bir araya gəlib.

*Ardı 5-ci səh.*

## İnfeksiyanın yoluxma zənciri qırıla bilər



**2019-cu ilin son günlərində Çinin Uhan şəhərində aşkarlanan, qısa zaman ərzində bütün dünyaya yayılan koronavirus (COVID-19) 2020-ci ilin martında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya elan edildi. İndiyədək planetin 107 milyona yaxın sakini bu virusa yoluxub. Təhlükəli infeksiyadan ölüm hallarının ümumi sayı 2,4 milyona çatıb.**

### Əhalinin 80 faizi peyvənd olunsa

Bu dövrdə hər kəsi maraqlandıran bir məqam da virusun təbii, yoxsa süni şəkildə yayılması idi. Yeni koronavirusun mənşəyini öyrənmək məqsədilə ÜST mütəxəssisləri yanvarın 14-də Çinə yollanmışdılar. Onlar koronavirusun ilk dəfə yayıldığı bildirilən Uhan şəhərindəki dəniz məhsulları satılan bazarda məlumatlar toplamışdılar.

*Ardı 4-cü səh.*

## Qarabağın qapısı

### Aparılan abadlıq və quruculuq işləri Yevlaxı tanınmaz edir

Ölkənin bütün bölgələrində olduğu kimi, Qarabağın qapısı sayılan Yevlaxda da bütün müharibə dövrü hamı cəbhə ilə nəfəs alır, hər bir yevlaxlının ürəyi qəhrəman Azərbaycan əsgəri ilə bir döyünürdü. Nəticə etibarı ilə güclü dəmir yumruğa çevrilən bu yenilməz birlik qələbəmizi şərtləndirən başlıca amil oldu.

Zəfərimizin yaratdığı nikbinlik, qürurla yoğrulan xoş əhvali-ruhiyyə bu gün hər bir rayon sakinini müharibədən sonrakı təsərrüfat, abadlıq və quruculuq işlərində fəal iştiraka, gerçək fədakarlığa ruhlandırır. Bu baxımdan görülən genişmiqyaslı təmir-tikinti işləri, həyata keçirilən məqsədyönlü tədbirlər məmnunluq doğurur. Rayon 2020-ci ili yüksək göstəricilərlə başa vurub. Aqrar sektorda dinamik inkişaf tempi təmin edilib, taxıl, pambıq, heyvandarlıq məhsulları, meyvə-tərəvəz istehsalında əvvəlki illərlə müqayisədə xeyli artıma nail olunub.

*Ardı 5-ci səh.*

### Onlar yenidən müharibə başlayarsa, Qarabağda bir daha döyüşməyəcəklərini deyirlər

## Ermənistanda hərbçilər ayağa qalxdı



**Müharibədəki məğlubiyyətdən sonra Ermənistanda baş qaldıran dərin siyasi-ictimai böhran hər keçən gün özünü daha qabarıq şəkildə büruzə verməkdədir.**

Digər tərəfdən, getdikcə daha da ağırlaşan sosial-iqtisadi durum bütün sahələrə sirayət etməkdədir.

Ermənistanda insanları narazı salan problemlərin sırasına son vaxtlarda biri də əlavə olunub. Söhbət məğlub ordunun əsgərlərinə fərarilik ittihamı ilə bağlı cinayət işlərinin açılmasıdır. Belə ki, Ermənistan hüquq mühafizə orqanları 44 günlük Qarabağ müharibəsində döyüş meydanından qaçan 10 mindən çox hərbçi barədə fərarilik ittihamı ilə cinayət işi qaldırıb və onların dindirilməsinə başlayıb.

*Ardı 7-ci səh.*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı əməkdaşlarına 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri rütbəsi verilsin:

Məmmədov Azər Oqtay oğlu - İdxal-İxrac Əməliyyatları üzrə Nəzarət Baş İdarəsinin rəisi

Şirinov Natiq Telman oğlu - İqtisadi Təhlil və Uçota Nəzarət Baş İdarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2021-ci il*

## M.N.Nəcəfbəylinin Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Murad Nizami oğlu Nəcəfbəyli Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2021-ci il*

## R.Ş.Rzayevin Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rasim Şəmsəddin oğlu Rzayev Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2021-ci il*

## İşğaldan azad olunan ərazilərdə nəqliyyat və rabitə infrastrukturunun qurulması məsələləri müzakirə edilib

**İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılmış Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun nəqliyyat və rabitə infrastrukturunun qurulması məsələlərinə həsr edilmiş iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, İdarələrarası Mərkəzin rəhbəri Hikmət Hacıyev, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev və aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

İşğaldan azad olunmuş ərazilərdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, "Azərbaycan Dəmir Yolları" QSC-nin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin, "Azərbaycan Hava Yolları" QSC-nin, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin nümayəndələri tərəfindən həyata keçirilən və planlaşdırılan prioritet layihələrin, o cümlədən telekommunikasiya və poçt infrastrukturunun qurulması, Füzuli hava limanının, dəmir və avtomobil yollarının tikintisi, ərazilərin minalardan təmizlənməsi layihələrinin icrası barədə məlumatlar verilib.

İşğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işlərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən əsas istiqamətlər və verilən tapşırıqlar, məskunlaşma ilə bağlı gələcək tələbat və perspektivlər, yeni çağırışlar və konsepsiyalar nəzərə alınmaqla icra edilməsi, bu məqsədlə bütün qurumlar tərəfindən görülən işlərin İdarələrarası Mərkəz vasitəsilə əlaqələndirilməklə icra edilməsinin vacibliyi vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## Milli Məclisin iclasında

# Xüsusi nümayəndəlik institutunun hüquqi bazası yaradılır





*Əvvəli 1-ci səh.*

Xüsusi nümayəndəlik ölkədə aparılan idarəetmə islahatlarının davamı kimi müsbət qiymətləndirildi. Qeyd olundu ki, bu qurum icra hakimiyyətləri ilə paralellik təşkil edən hakimiyyət orqanı deyil.

Əli Hüseynli deputatları maraqlandıran məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edildi.

"Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanununun layihəsi haqqında (ikinci oxunuş) da Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi.

Qısa müzakirədən sonra Konstitusiya qanununun layihəsi ikinci oxunuşun prosedur qaydalarına uyğun olaraq səsə qoyuldu və qəbul olundu.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) müzakirəyə təqdim etdi. Bildirdi ki, qanun layihəsi ilk oxunuşda müzakirə zamanı deputatlar tərəfindən müsbət dəyərləndirilib. Dəyişikliyin əsas mahiyyəti çağırışçıların hüquqi statusunu bərabərləşdirməkdir. Qanuna əlavə edilən 21.1.4-1-ci maddəyə əsasən "doktoranturaya qəbul üzrə ilk imtahandan müvəffəqiyyətlə keçən çağırışçılara - 3 ay müddətinə" birdəfəlik möhlət hüququ verilir. Beləliklə, bakalavriat və magistratura pilləsində təhsil alanlara şamil edilən möhlət hüququ doktorantlara da aid olunur.

Müzakirə zamanı deputatlar dəyişikliyi yüksək qiymətləndirdilər və layihə ikinci oxunuşda qəbul edildi.

Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim etdi. Bildirdi ki, dəyişikliyin əsas məqsədi Azərbaycanda qida təhlükəsizliyinin möhkəmləndirilməsi, fiskal siyasətdə şəffaflığın artırılması və əhalinin sağlamlığının qorunması istiqamətində daha yeni tədbirlərin həyata keçirilməsi ilə bağlıdır. Birinci oxunuş zamanı komitədə və plenar iclasda deputatların verdikləri təkliflərin çoxu ikinci oxunuşda nəzərə alınıb. Məsələn, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı, həmçinin kəpəyin istehsalı və satışı ilə bağlı 1 illik ƏDV-dən azad edilmə müddəti hazırkı oxunuşda 1 ildən 3 ilədək uzadılıb və s.

Qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

Milli Məclisin sədri Sahibə Qafarova məlumat verdi ki, gündəlikdəki növbəti iki məsələ mahiyyətcə bir-biri ilə bağlıdır. Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələri ilə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə məlumat verdi. Qeyd etdi ki, dəyişikliklərə əsasən, yeni növ narkotik vasitələr və psixotrop maddələr qanunlara və müvafiq siyahılara daxil edilib. Bununla da həmin maddələrin dövriyyəsi qanunsuz hesab ediləcək və cinayət məsuliyyətinə səbəb olacaq. Layihələr komitədə və plenar iclasda dəstəklənib.

Komitə sədri Ziyafət Əsgərov, deputatlardan Nigar Arpadarai, Aqil Abbas, Qüdrət Həsənquliyev layihə ilə bağlı fikirlərini bildirdilər. Hər iki məsələ ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Qısa fasilədən sonra Milli Məclis işini davam etdirdi. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələrini müzakirəyə təqdim etdi. Bildirdi ki, hər iki layihəyə əsasən edilən dəyişikliklərin əsas məqsədi yol hərəkətində təhlükəsizlik qaydalarının təkmilləşdirilməsidir. Deputatların irəli sürdükləri təkliflər əsasən nəzərə alınıb və layihələr təkmilləşdirilib.

Müzakirələr zamanı Qüdrət Həsənquliyev həmkarı Fazil Mustafa ilə birlikdə Milli Məclisin plenar iclasında səsləndirdikləri təkliflərin müvafiq orqanlara çatdırıldığını və həmin qurumlar tərəfindən operativ tədbirlər görüldüyünü vurğulayaraq minnətdarlığını bildirdi. Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli komitə sədri Bəxtiyar Əliyev, deputatlardan İltizam Yusifov fikirlərini açıqladıqdan sonra hər iki qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul olundu.

Qısa müzakirədən sonra "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda təsdiq olundu.

Deputatlar "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə də ikinci oxunuşda müsbət münasibət bildirdilər.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva təqdim etdi. Bildirdi ki, dəyişikliklər ictimai varidata daxil edilmiş Azərbaycan folkloru nümunələrinin və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması mexanizminin yaradılması və dövlət qeydiyyatına alınmış əsərlərdən istifadəyə görə hesablanan qonorarın müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə istifadəyə yönəldilməsi kimi məsələləri nəzərdə tutur.

Layihə səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Gündəlikdəki növbəti üç məsələ birinci oxunuşda müzakirə olundu. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov məlumat verdi. Bildirdi ki, 2020-ci ildə dünyanı bürüyən pandemiyanın sahibkarlara vurduğu ziyanı yumşaltmaq məqsədilə ölkəmizdə bir sıra tədbirlər həyata keçirilib. Layihədə nəzərdə tutulan dəyişiklik Azərbaycan ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddətinin (qanunun 2.1-ci maddəsində nəzərdə tutulan yoxlamalar istisna olmaqla) daha bir il - 2022-ci il yanvarın 1-dək uzadılmasını və yoxlamaların dayandırıldığı müddət başa çatdıqdan sonra da sahibkarların həmin dövrdəki fəaliyyəti ilə bağlı yoxlamaların aparılmasının qadağan edilməsini ehtiva edir.

Müzakirə zamanı çıxış edənlər rəy və təkliflərini diqqətə çatdırdılar və qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim etdi. Qeyd etdi ki, Azərbaycan Prezidentinin 10 dekabr 2018-ci il tarixli "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzaladığı Fərmana əsasən, Ailə Məcəlləsində övladlığagötürmə ilə bağlı müddəalar təkmilləşdirilib və bu sahədə xidmətlərin elektron qaydada aparılması üçün elektron idarəetmə sistemi yaradılıb. Hazırda təklif edilən dəyişikliklər isə övladlığagötürmə ilə bağlı qanunvericilikdəki boşluqları aradan qaldırmaq məqsədi daşıyır. Uşaqları övladlığa götürmək istəyən qohumları üçün bu prosedur asanlaşdırılır.

Qanun layihəsi birinci oxunuşda qəbul olundu.

İclasda son olaraq Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarıldı. Qeyd olundu ki, bu dəyişiklik də övladlığagötürmə ilə bağlıdır və Ailə Məcəlləsindəki dəyişikliklə əlaqədardır, qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edir.

Layihə birinci oxunuşda təsdiq olundu.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Postpandemiya dövründə vergi sistemi" mövzusunda videokonfrans keçirilib

**Fevralın 12-də vergi xidməti işçilərinin peşə bayramına həsr olunmuş "Postpandemiya dövründə vergi sistemi" mövzusunda videokonfrans keçirilib.**





AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən müharibəsində böyük zəfəri vurğulanıb, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsi ehtiramla anılıb.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov vergi xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edib, 2020-ci ildə ölkə iqtisadiyyatında müşahidə olunmuş trendlər, pandemiyanın təsirlərinin minimallaşdırılması və sahibkarlığın dəstəklənməsi üzrə görülmüş işlər, yeni çağırışlara uyğun həyata keçirilən iqtisadi siyasət barədə məlumat verib.

Konfrans iştirakçılarına dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizin iqtisadi inkişaf hədəfləri, iqtisadi siyasətin əsas istiqamətləri və aparılacaq islahatlar, qanunvericilik və inzibatçılıq sahəsində dəyişikliklər, şəffaflıq istiqamətində təşəbbüslər, vergi siyasətinin yeni istiqamətləri və sahibkarlarla iş prinsipləri barədə geniş məlumat verilib.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, 2020-ci ildə də ölkə iqtisadiyyatına, həmçinin sahibkarlıq subyektlərinə genişmiqyaslı dövlət dəstəyi göstərilib. Bu tədbirlərə pandemiyanın zərərlərini azaltmaq, iş yerlərini qorumaq üçün maliyyə dəstəyinin göstərilməsi, müddətli vergi güzəştləri və tətillərinin tətbiq edilməsi, güzəştli kreditlərin verilməsi və digər mexanizmlər daxildir.

Qeyd olunub ki, ötən il ərzində sahibkarlara 358 milyon manatdan çox maliyyə dəstəyi göstərilib, 115 milyon manat həcmində vergi güzəştləri paketi təqdim edilib, 169 milyon manat həcmində dövlət zəmanətli kreditlər ayrılıb, mövcud kreditlər üzrə 33 milyon manat faiz subsidiyasının verilməsi barədə qərarlar qəbul olunub.

İqtisadiyyat naziri pandemiyanın təsirlərinin aradan qaldırılması, iqtisadi fəallığın bərpa edilməsi, biznesin aktiv fəaliyyətə qaytarılmasının hazırda qarşıda duran əsas vəzifələrdən olduğunu diqqətə çatdırıb. Bu məqsədlə 2021-2025-ci illər üçün ciddi və dərin institusional islahatların həyata keçirilməsini tələb edən vəzifələr müəyyənləşdirilib. Torpaqlarımızın işğaldan azad edilməsi Qarabağ bölgəsinin dirçəlişi kimi mühüm məsələni gündəmə gətirib, iqtisadi inkişaf planlarına yenidən baxılması zərurətini yaradıb. Bu tarixi qələbə ölkəmizin inkişafında yeni səhifə açır. İşğaldan azad olunmuş ərazilərin iqtisadiyyata reinteqrasiyası və bölgənin iqtisadi imkanlarının reallaşdırılması Azərbaycanın sosial-iqtisadi inkişafının sürətlənməsində böyük amil olacaq.

Konfransda Dövlət Vergi Xidmətinin rəis müavini, xidmət rəisi vəzifəsini müvəqqəti icra edən Orxan Nəzərli "Pandemiya və postpandemiya dövründə Dövlət Vergi Xidmətinin fəaliyyəti" mövzusunda təqdimatla çıxıb edib və vergi sistemində reallaşdırılan islahatlar, vergi qanunvericiliyinə edilmiş dəyişikliklər, həyata keçirilən və nəzərdə tutulan tədbirlər barədə danışıb.

Sonra Türkiyə Gəlirlər İdarəsinin başkanı Bekir Bayrakdar "COVID-19 və vergi inzibatçılığı: Türkiyə vergi orqanlarının təcrübəsi", Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Postpandemiya dövründə vergi qanunvericiliyi qarşısında yaranan çağırışlar", KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov "Pandemiya ilə əlaqədar kiçik və orta sahibkarlığa dövlət dəstəyi", Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi Nicat İmanov "Cari və növbəti illərdə vergi siyasəti çərçivəsində qanunvericilikdə həyata keçiriləcək tədbirlər barədə", Qida və İçki Sənayeçiləri Assosiasiyasının sədri Emin Dostiyari "Qida sektorunun pandemiya və yeni normal dövrü", UNEC Empirik Tədqiqatlar Mərkəzinin rəhbəri Xətai Alıyev "Pandemiyanın vergidən yayınmaya təsiri", "Auto Azerbaijan" şirkətinin direktoru Emil İsmayılov "Azərbaycanda pandemiyanın təsiri", "R.İ.S.K. Elmi İstehsalat Şirkəti" QSC-nin baş direktoru Cabir Cümşüdov "Karantin dövründə İnformasiya Texnologiyaları sahəsində biznesin ehtiyacları" mövzusunda çıxış ediblər. Natiqlər ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin yeni çağırışlara uyğun həyata keçirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri müsbət qiymətləndirib, əsas prioritetlərin reallaşdırılması prosesində aparılacaq islahatlara dair təkliflərini səsləndiriblər.

Konfransda müzakirələr aparılıb, sahibkarların sualları cavablandırılıb.

Tədbirdə İqtisadiyyat Nazirliyinin və nazirlik yanında Dövlət Vergi Xidmətinin rəhbərliyi, dövlət qurumlarının, Milli Məclisin deputatları, sahibkarların ictimai birliklərinin təmsilçiləri, xarici və yerli ekspertlər və iş adamları iştirak ediblər.

# Azərbaycan yeni quruculuq mərhələsinə qədəm qoyur

## İlham Əliyev bu istiqamətdəki prioritetləri müəyyənləşdirdi

*Əvvəli 1-ci səh.*



### HƏDƏFDƏ YENƏ DƏ AZƏRBAYCAN VƏTƏNDAŞININ YÜKSƏK RİFAHIDIR

**Prezidentliyə başladığı ilk gündən "Azərbaycan xalqı xoşbəxt yaşamağa layiqdir və çalışacağam ki, xalqımız yaxşı yaşasın" bəyanatını verən cənab İlham Əliyev fəaliyyəti dövründə daim vədinə əməl etmişdir.**

Məcburi köçkünlər çadır şəhərciyindən müasir yaşayış komplekslərinə çıxarılmış, regionlara daimi elektrik enerjisi və təbii qaz verilməsi nizama salınmış, yeni yol infrastrukturu yaradılmış, yoxsulluq və işsizlik minimum həddə endirilmiş, əməkhaqqı dönə-dönə artırılmışdır.

*Pandemiya dövründə bir sıra sahələrin fəaliyyəti müəyyən müddətə məhdudlaşdırıldı, hətta işini müvəqqəti dayandıran sahibkarlar da oldu. Belə çətin məqamda dövlət öz vətəndaşını yalqız qoymadı, birbaşa yardımlar olundu, sahibkarlara kömək göstərildi. Əlbəttə, bütün bunlar irəlicədən bilinməyən, nəzərdə tutulmayan ödəmələr idi. Lakin cənab İlham Əliyev sözünə sadiq qaldı, daim Azərbaycan vətəndaşının yanında olduğunu növbəti dəfə də sübut etdi.*

Azərbaycan 27 ildir ki, işğalda qalan torpaqlarını erməni faşistlərindən azad etmək üçün Vətən müharibəsinə başlamalı oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibə böyük zəfərlə başa çatdı.

Ölkəmizin ərazi bütövlüyü bərpa edildi, torpaqlarımız murdar düşmənlərdən təmizləndi. Şəhid və yaralılarımız da oldu. Dövlət hər bir şəhid ailəsinin, müharibə iştirakçısının sosial ehtiyaclarının ödənilməsi, sağlamlığının bərpa edilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün ardıcıl və təsirli tədbirlər görür.

Dövlət başçısı tərəfindən qəbul edilən qərarlar, imzalanan sənədlər sübut edir ki, bu qayğı davamlı və uzunmüddətlidir. Bundan sonrakı illərdə də daimi olaraq dövlət büdcəsində nəzərə alınacaqdır.

COVID-19 pandemiyası davam edir, hələ onun nə qədər çəkəcəyi bilinmir. Ordu quruculuğuna, müharibəyə hazırlığa, habelə hərbi əməliyyatlara xeyli vəsait sərf edən dövlətimiz daim ordunu gücləndirməli, dəmir yumruğu hazır vəziyyətdə saxlamalıdır!

**Daim düşünülmüş və uzaqgörən siyasət yürüdən, ölkənin perspektiv inkişafı ilə cari məsələləri uğurla əlaqələndirən cənab İlham Əliyev artıq hədəfə 2030-cuilədək görüləcək işləri gətirmişdir. Mərkəzində xalqın sosial rifahının daha da yüksəldilməsi dayanan həmin hədəfin prioritet istiqamətləri də Prezidentimiz tərəfindən dəqiqləşdirilmiş və açıqlanmışdır.**

### DƏYİŞMƏZ VƏ TƏZƏ PRİORİTETLƏR

Azərbaycan davamlı və ardıcıl islahatlar yolu ilə irəliləyir. Vətən müharibəsində qazanılan möhtəşəm qələbə növbəti illərdə sistemli və davamlı islahatlara yeni imkanlar yaradır. 2021-2030-cu illəri əhatə edən inkişaf prioritetləri bir cümlə ilə belə ifadə oluna bilər: *Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın təmini!*

Müstəqil Azərbaycan dövlətinin inkişafının və qüdrətlənməsinin dəyişməz prioritetləri barədə çox deyilib və yazılıb. Yuxarıda onları bir daha xatırlatdıq.

Lakin zaman da yerində dayanmır, daim dəyişir, yeni çalarlar kəsb edir.

Üstəlik 44 günlük Vətən müharibəsi təkcə Azərbaycan üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün yeni reallıqlar yaratmış, yeni imkanlar qapısı açmışdır.

Azərbaycan və onun qonşuları, dostları bu imkandan yetərincə bəhrələnə bilərlər!

Əgər Ermənistan rəhbərliyinin ağlı başına qayıtsa və onlar revanşist niyyətlərdən əl çəksələr, həm dövlətlərini iflasdan qurtarar, həm də yeni şəraitdən faydalana bilərlər.

Əlbəttə, yeni imkanlardan kimin nə qazanacağını gələcək göstərəcəkdir!

**Azərbaycan isə öz yolu ilə, öz prinsipləri əsasında zəfər yürüşünü davam etdirməkdədir!**

**Həm də onun bu yürüşü adi yürüş deyil!**

Region iqtisadiyyatının ümumi arxitekturasının dəyişməsinə həlledici təsir göstərən bir yürüşdür!

Sosialyönümlü bazar iqtisadiyyatının inkişafına xidmət edəcək bu dəyişikliklər işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasına da güclü təkan verəcəkdir.

*Prioritetlərin müəyyənləşdirilməsində təkcə istək, arzu və mövcud imkanlar deyil, müasir dünyada gedən proseslər də nəzərə alınmışdır.*

*Diqqətlə nəzər saldıqda prioritetlərin hər birinin bir çox məqamları özündə ehtiva etdiyini görürük.*

❖ ❖ ❖

**Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat** Azərbaycanın fəth etdiyi yüksəkliklərdəndir. Dünyanın tanınmış qurumlarının illik hesabatlarında hər il tutduğumuz yer, sahib olduğumuz reytinq bunun əyani və faktiki təsdiqidir. Əvvəlcə Azərbaycanın uğurlu yeni neft strategiyası, ardınca reallaşdırdığı transmilli layihələr, yaratdığı Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri və logistika mərkəzləri, daha sonra qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının inkişaf etdirilməsi, sahibkarlığa verilən sistemli dövlət dəstəyi dayanıqlı inkişafı təmin etdi.

Ölkəmizin tətbiq etdiyi yeni, müasir texnologiyalar dünya bazarına çıxarılan məhsulları rəqabətqabiliyyətliliyin təmini tələblərinə daim cavab verir. Azərbaycan yeganə ölkələrdəndir ki, müstəqillik dövründə ÜDM istehsalını 3 dəfə artırmışdır. İqtisadiyyatın daim şaxələndirilməsi onun dayanıqlığına xidmət edən amillərdəndir. Gizli iqtisadiyyatın minimuma endirilməsi, dövlət sektorunda şəffaflığın daha da artırılması, makroiqtisadi sabitliyin qorunması xüsusi diqqət yetirilən məsələlərdəndir.

*Qarşıdakı 10 il üçün müəyyən olunan prioritetlərdə bu sahədə görüləcək çoxsaylı işlər də dəqiq müəyyənləşdirilmişdir.*

**Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət** quruculuğu başlıca hədəf kimi qalmaqdadır. Azərbaycan ilbəil inkişaf etdikcə, iqtisadi imkanları artdıqca, bunun doğurduğu nəticələri hər bir vətəndaşımız öz həyatında hiss edir. Regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramlarının qəbulu və uğurlu icrası ölkə paytaxtından uzaqda yerləşən yaşayış məntəqələrində də həyat səviyyəsinin daim yüksəlməsinin təminatçısına çevrilmişdir. Dövlət başçısının imzaladığı sərəncamlar, qəbul etdiyi sosial paketlər əməkhaqlarının sistemli artımını təmin edir, əhalinin bütün qrupları dövlətin yüksələn iqtisadi imkanlarından daim bəhrələnirlər.

Azərbaycan nadir ölkələrdəndir ki, burada dövlət hesabına tikilərək təmir olunan mənzillər və evlər, minik avtomobilləri əlillərə və şəhid ailələrinə, qaçqın və məcburi köçkünlərə, hətta jurnalistlərə pulsuz verilir.

*Ünvanlı sosial yardımlar və digər layihələr dövlətin çətinlikdə olan vətəndaşına sosial dayağının yeni formasıdır.*

*Belə tədbirlərin artırılması yeni prioritetlər sırasında yer almaqdadır.*

**Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı** hesab olunan ölkəmiz növbəti on ildə də bu istiqamətə sadiq qalacaqdır. Dünya texnoloji inqilablar dövründədir. Dərin rəqəmsallaşma, yeni texnologiyaların dərindən tətbiqi olmadan dövrün tələblərilə ayaqlaşmaq çətindir. Şübhəsiz bu məqamda insan amili həlledici sayılır.

Azərbaycan daim hadisələri qabaqlamağı bacarıb. Cənab İlham Əliyevin illər öncə irəli sürdüyü "Neft kapitalını insan kapitalına çevirmək" çağırışı real həyatda öz yerini tutub. Artıq minlərlə gənc ölkə daxilində, habelə dövlət vəsaiti hesabına dünyanın ən qabaqcıl ölkələrindəki tanınmış təhsil ocaqlarında oxuyaraq vətənə dönmüşdür.

*Müxtəlif sahələrdə çalışan belə mütəxəssislərin ölkə iqtisadiyyatına gətirdikləri yeni ab-hava duyulmaqdadır və prosesin davamlılığının vacibliyini də göstərir.*

**İşğaldan azad olunmuş ərazilərə qayıdış** günümüzün ən aktual hədəfidir. Dövlət başçısı İlham Əliyev də bunu gündəlik fəaliyyətinin prioritetinə çevirmişdir. Xalqımızın ən böyük arzusunu gerçəkləşdirən Prezidentimiz onun istəyinin yeni mərhələsinin icrasının ardıcıllığını da dəqiq müəyyənləşdirib. Qarabağa qayıdış təkcə bu bölgəyə irihəcmli investisiya yatırılması deyil, həm də oradakı imkanlardan ölkə iqtisadiyyatının yararlanması anlamındadır. Belə ki, Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaq var. İşğal olunmuş ərazilər vaxtilə Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizini təşkil edirdi. Suvarma suyu ehtiyatlarının müəyyən hissəsi, habelə mineral su ehtiyatlarının 40 faizə qədəri bu ərazidə yerləşir.

Növbəti on ildə Qarabağın dirçəldilərək cənnətə çevrilməsi və onun potensialının ölkə iqtisadiyyatına yönəldilməsi əsas prioritet məsələdir.

**Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə** çevrilmək dünyada yaşayanların hamısının arzusudur.

Dünya dövlətlərinin böyük əksəriyyəti ekoloji problemlərin həllinə daha çox diqqət ayırmaqdadır. Səbəb isə eynidir: insanın təbiətə vurduğu zərbələr indi özünə doğru qayıdır. Təbiət öz "qisasını" başqa formada alır və insanlar yol verdikləri yanlışlıqların bədəlini ödəməkdədirlər.

Uzun illərdir ki, Prezident İlham Əliyevin tapşırığı ilə, o cümlədən Birinci vitse-prezident Mehriban xanımın rəhbərliyi altında ölkəmizdə yaşıllıqların qorunması, yeni yaşıllıq sahələrinin və meşə zolaqlarının salınması sahəsində ardıcıl iş gedir.

Erməni faşistləri işğal etdikləri ərazilərdə həm də "yaşıl soyqırımı" törətmişlər. Bir neçə yüz il yaşı olan çinarlıqlar, qiymətli ağacların bitdiyi meşələr məhv edilmiş, oduncağa çevrilərək satılıb sovrulmuşdur. Şübhəsiz, bunun da hesabı çəkiləcəkdir və dövlət başçısı zəruri tapşırıqlarını vermişdir.

Böyük qayıdış proqramında meşələrin bərpa edilməsi, ekoloji vəziyyətin sağaldılması da xüsusi yer tutur.

*Azərbaycan dəfələrlə uzaqmənzilli, aydın hədəfli səfərlərə çıxıb.*

*Hər dəfə ümidi imkanından çox olub.*

*İndi isə geniş imkan, güclü əl və həm də böyük təcrübə sahibidir!*

**Güclü iqtisadiyyatı, zəfər müharibəsindən doğan böyük ruh yüksəkliyi, milli həmrəyliyi olan müstəqil dövlətimiz yeni hədəflərə də uğurla çatacaqdır!**

**Çünki onun İlham Əliyev kimi qətiyyətli rəhbəri, düşmən niyyətləri məhv edən Müzəffər Ali Baş Komandanı və milli maraqları hər şeydən uca tutan Prezidenti vardır!**

**Bəxtiyar SADIQOV**

# Ölkəmizdə qadınların savadlılıq səviyyəsi yüksəkdir

## **Birinci vitse-prezident Mehriban ƏLİYEVA:** "Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54, fəlsəfə doktorlarının 51, elmlər doktorlarının 46 və elmi tədqiqatçıların 56 faizini təşkil edir"

**Zəkası, müdrikliyi, sədaqəti ilə hər zaman xalqımızın adını uca tutan Azərbaycan qadını cəmiyyətimizin ən aparıcı qüvvəsinə çevrilib. Dünya elm və mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olub. Bu gün də həmin tendensiya davam etməkdədir. Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları və xidmətləri qədim tariximizin səhifələrini zənginləşdirib.**

Bu gün Azərbaycanda savadlılıq səviyyəsi çox yüksəkdir. Burada qadınlarımızın və qızlarımızın payına düşən rəqəmlər də ürəkaçandır. Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54, fəlsəfə doktorlarının 51, elmlər doktoru dərəcəsinə malik olanların 46 və elmi tədqiqatçıların 56 faizini təşkil edirsə, demək, xalq təsərrüfatının inkişafında da zəriflərimizin zehni əməyi yüksəkdir. Daha diqqətçəkən faktlardan biri də Azərbaycan Milli Elmlər Akademiyasının ümumi kollektivinin 59 faizinin qadınlardan ibarət olmasıdır.

Qloballaşan və sürətlə dəyişən dünyamızda qızların da təhsili və onların elm sahəsində iştirakı yeni çağırışlara uyğun olmalıdır. Müqayisə üçün qeyd edək ki, dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Azərbaycanda isə bu rəqəm 40 faizdir. Bu o deməkdir ki, ölkəmizdə həmin sahələr üzrə rəqəmlər orta dünya göstəricisindən 5 faiz çoxdu. Hansı ki, elə ölkələr var, nəinki orta dünya göstəricisinə yaxındır, hətta ondan dəfələrlə aşağı rəqəmlərə malikdir.

ISESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Gün münasibətilə fevralın 11-də videokonfrans formatında keçirilən tədbirdə çıxış edərkən Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bir daha qeyd etdi ki, qlobal çağırışlara cavab vermək üçün elm, texnologiya və innovasiya zərurətə çevrilib. Elm və gender bərabərliyi "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi" də daxil, beynəlxalq inkişaf məqsədlərinə nail olunması üçün mühüm əhəmiyyətə malikdir: "Mən islam mədəni irsinin qorunması və müsəlman dünyasında təhsil və elmin təşviqi ilə bağlı İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının nəcib missiyasını təqdir edir və Azərbaycan ilə ISESCO arasında məhsuldar əməkdaşlığı minnətdarlıqla qeyd edirəm..."

İlk olaraq belə bir mötəbər tədbirdə fəxri qonaq qismində iştirak üçün nəzakətli dəvətə görə Baş direktora təşəkkürünü bildirən Birinci vitse-prezident bunu böyük şərəf və Azərbaycan qadınlarının təhsil və elmdə iştirakının inkişafı ilə bağlı ölkəmizin yürütdüyü siyasətin yüksək qiymətləndirilməsi kimi dəyərləndirdi. Mehriban xanım Əliyeva çıxışında qeyd etdi ki, bu, yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil. Həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir. Bu gün COVID-19 ilə mübarizənin ön cəbhəsində dayanan qadın alimə, həkim və səhiyyə işçilərinə ehtiram ifadə olunmalıdır. Biz test üsullarının təkmilləşdirilməsindən tutmuş vaksinlərin hazırlanmasına qədər COVID-19 ilə mübarizənin müxtəlif mərhələlərində həlledici rol oynayan tədqiqatçı, səhiyyə sahəsində çalışan, xalqımızın sağlamlığının keşiyində dayanan incə qəlbli, zərif barmaqlı, ağ xalatlı qadınlarımızla fərəhlənə bilərik.

"...Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, bir əsrdən öncə, sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm", - deyən Birinci vitse-prezident, ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım onu da vurğuladı ki, Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür: "Qızların təhsilinə gəldikdə isə, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır..."

Tədbirdə qeyd edildiyi kimi, bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib. Onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl örnəkdirlər. Lakin bu gün ən vacib məsələ qızların və gənc xanımların iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının davam etdirilməsi və elm sahəsində gender boşluğunun doldurulmasıdır.

Birinci vitse-prezident bu yaxınlarda BMT-nin İnkişaf Proqramı ilə bərabər başlanılan "Qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyatda" adlı mentorluq proqramını xatırladaraq qeyd etdi ki, burada məqsəd tələbə və gənc xanımların həmin sahədə uğur qazanmış nümunəvi şəxslərlə təmas yaratması, onlara təhsil və karyera sahəsində çağırışların öhdəsindən gəlmək üçün məsləhətlərin verilməsidir: "ISESCO-nun xoşməramlı səfiri qismində mən bütün üzv dövlətlərə bu sahələrə daha çox sərmayə yatırmağa, habelə zəruri siyasət və birgə fəaliyyət planları işləyib hazırlamağa dair çağırış edirəm. Biz qadınlar və qızların sabahın əmək bazarına lazımi bacarıqlara yiyələnmələri üçün innovativ maliyyə mexanizmləri yaratmalıyıq. Azərbaycan bu mənada öz töhfəsini verməyə hazırdır".

Ölkənin birinci xanımı Mehriban Əliyeva fürsətdən istifadə edərək, Ermənistanın işğal etdiyi ərazilərimizin 30 ildən sonra Azərbaycan tərəfindən azad olunması və tarixi ədalətin bərpası ilə nəticələnən ötənilki 44 günlük Vətən müharibəsi zamanı dəyərli dəstəyinə görə ISESCO-ya, şəxsən onun Baş direktoru doktor Salim əl-Malikə dərin minnətdarlığını ifadə etdi. Mehriban xanım bildirdi ki, bir ay bundan əvvəl Azərbaycan Prezidentinin dəvətinə əsasən Baş direktorun rəhbərliyi ilə ISESCO-nun nümayəndə heyəti ölkəmizdə səfərdə olub. Qonaqlar işğaldan azad olunmuş bəzi ərazilərə səfər etmək imkanı qazanıb və onlarca məscidlərimizin təhqir, yüzlərlə tarixi abidəmizin dağıdılması daxil olmaqla, ümumi dağıntı və vandalizmin miqyasının şahidi olublar: "Hazırda dövlət qarşısında azad olunmuş ərazilərin canlandırılması və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsi kimi nəhəng vəzifə dayanır. Biz bunun öhdəsindən gələcəyik. Biz dağıdılmış şəhərləri və kəndləri bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik. Biz işğal zamanı zərər görmüş mədəni irs abidələrinin vəziyyətinin qiymətləndirilməsində ISESCO-nun Azərbaycan hökuməti ilə birgə çalışmağa hazır olduğunu yüksək qiymətləndiririk. Eyni zamanda ISESCO-nun Azərbaycanda regional nümayəndəlik təsis etməsi imkanının nəzərdən keçirilməsinə görə xüsusi minnətdarlığımızı bildiririk. Həmin nümayəndəlik digər sahələrlə yanaşı, qadınlar və qızların elmdə rolunun artırılmasına konkret diqqət yetirməklə elm sahəsində əməkdaşlığımızı gücləndirə bilər".

ISESCO-nun Baş direktoru Salim əl-Malik videokonfransa dəvəti qəbul edib məzmunlu çıxış etdiyinə görə Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya təşəkkürünü bildirərək xüsusi vurğuladı ki, əmin ola bilərsiniz, ISESCO elm, təhsil, mədəniyyət sahələrində bütün üzv dövlətlərə dəstəyini göstərəcək.

Tədbirdə çıxış edənlər qlobal səviyyədə təhsil sahəsində mövcud boşluğun aradan qaldırılmasının, bu sferada gender bərabərliyinin təmin edilməsinin vacibliyini vurğuladılar. Bildirdilər ki, gənc qızların elmlə məşğul olmalarını, qadınların elm sahəsində karyerasını düzgün qurmalarını təmin etmək mühüm məsələdir. Qeyd edildi ki, bəşəri problemlərin həlli üçün qadınlar daha çox elmə cəlb olunmalı, inklüziv və keyfiyyətli təhsillə təmin edilməlidirlər. Bu, onların gələcək karyeraları və cəmiyyətdə iştiraklarının fəallıq əmsalının da yüksəldilməsi deməkdir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Şuşa qalasının bərpasına başlanılıb



Şuşa qalasının bərpasına başlanılıb. AZƏRTAC xəbər verir ki, bərpa prosesinə 22 mütəxəssis cəlb olunub.

İlkin mərhələdə görülən işlərin gələn ayın sonlarına yekunlaşacağı gözlənilir. İşlər yekunlaşdıqdan sonra növbəti mərhələdə daha geniş bərpaya başlanılacaq.

Qeyd edək ki, Qarabağ xanı Pənahəli xan 1750-ci ildə Şuşa qalasının tikintisinə qərar verib və Qarabağ xanlığının mərkəzi bura köçürülüb. Qala sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılıb.

Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın tikilməsində əsasən yerli daşlardan və əhəng-yumurta sarısı qarışığından istifadə edilib. Qalanın üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir.

## Biz birlikdə güclüyük!

# İnfeksiyanın yoluxma zənciri qırıla bilər

## Əhalinin 80 faizi peyvənd olunsa

*Əvvəli 1-ci səh.*

ÜST ekspertlərinin yeni növ koronavirusun yaranmasının qlobal elmi tədqiqatı çərçivəsində Uhanda həyata keçirdikləri həmin tədqiqat ötən gün başa çatıb.

Onlar mətbuat konfransı keçirərək çinli həmkarları ilə birgə tədqiqatın detallarını və onun ilkin nəticələrini açıqlayıblar. Alimlər yeni koronavirusun əmələ gəlməsinin dörd versiyasının öyrənilməsini qarşılarına məqsəd qoyublar: vəhşi heyvandan insana birbaşa ötürülmə, vasitəçi heyvandan ötürülmə, dondurulmuş ərzaq məhsulları vasitəsilə ötürülmə və laboratoriya sızmaları.

Ekspertlərin fikrincə, birincisi, əldə edilən məlumatlar virusun təbii yolla əmələ gəlməsi ehtimalını artırır. Onlar bildirirlər ki, laboratoriya sızmaları versiyasının ehtimalı çox cüzidir. Ona görə də bu versiyanın öyrənilməsini davam etdirməyə lüzum yoxdur. Bundan sonra iş qalan üç istiqamət üzrə aparılacaq.

Bütün hallarda COVID-19 bir ildən çoxdur bütün dünyanın qarşısını ala bilmədiyi problem olaraq qalmaqdadır. Virus sürətlə yayılmaqda davam etsə də, əksər ölkələr artıq pandemiya ilə mübarizənin ən təsirli yolu olan vaksinasiya mərhələsinə qədəm qoyub. Ötən ilin dekabrından etibarən bir çox dövlətlər COVID-19-a qarşı peyvəndləmə işini həyata keçirir. Mütəxəssislər hesab edirlər ki, vaksinasiyanın qlobal bəlaya qarşı daha effektiv olması üçün bütün ölkələrdə onun tətbiqi zəruridir.

Azərbaycanda isə müvafiq proses yanvarın 18-də start götürüb. Mərhələli şəkildə ölkəyə gətirilən vaksinlərin ilkin mərhələdə tibb işçilərinə, 65 yaşdan yuxarı insanlara, polis əməkdaşları və digər risk qruplarından olan şəxslərə vurulmasına başlanılıb. Artıq risk qrupunda olan tibb işçilərinin peyvəndlənməsi həyata keçirilir. İndiyədək tibb işçilərinin 70 faizinə peyvənd vurulub. Dörd gündür ki, yaşı 65-dən yuxarı olan vətəndaşların da koronavirus əleyhinə vaksinasiyası davam edir.

Azərbaycanda vaksinasiya dövlət hesabına və könüllülük prinsipi əsasında aparılır. Ölkəmizdə Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən istifadə olunur.



Nüfuzlu tibbi jurnal olan "The Lancet" "CoronoVAC" vaksini haqqında geniş məqalə dərc edib. Məqalədə COVID-19 virusuna qarşı başlanılan vaksinasiya prosesinin əhəmiyyətindən, "CoronoVAC" vaksinindən, onun uğurlu sınaqlarının müsbət nəticələrindən bəhs olunur. Bildirilir ki, gənclərlə müqayisədə 60 yaşlı və ondan yuxarı insanlar, xüsusilə də kəskin xroniki xəstəliklərdən əziyyət çəkən şəxslər virusu daha ağır keçirirlər və yaş artdıqca ölüm riski də artır. Bu səbəbdən COVID-19-un dünyada yayılmasının qarşını almaq üçün effektiv və təhlükəsiz vaksinlərin tətbiqi zəruridir.

"CoronoVAC" vaksininin COVID-19 əleyhinə inaktivasiya edilmiş peyvənd olduğu bildirilən məqalədə deyilir ki, virusa yoluxma riski yüksək olan 60 yaş və daha yaşlı şəxslərin vaksinə daha çox ehtiyacı var. Bu vaksin qeyd edilən yaş qruplarında olan şəxslərin təhlükəsizliyinin, dözümlülüyünün və immunogenliyinin artırılması üçün istifadə edilir.

"CoronoVAC" vaksini Çinin Hebey əyalətinin Renku şəhərində təsadüfi üsulla hər iki gözü kor olan insanlarda kliniki şəraitdə test edilib. Belə ki, vaksin 0-28 gün arasında 2 dozada əzələyə inyeksiya edilir. Vaksinasiya prosesində iştirak edən bütün tərəflər - tədqiqatçılar, həkimlər, laborantlar hamısı maskadan istifadə etməlidir. İlk dozadan sonra vaksinasiya olunan şəxsin vaksinə reaksiyası müşahidə olunur. Əvvəlcədən bütün iştirakçılarla razılaşdırıldığı kimi, 28 gündən sonra ikinci doza vurulur.

Məqalədə vurğulanır ki, 2020-ci ilin 22 may və 1 iyun tarixləri arasında birinci faza üzrə 72 nəfərin, 12-15 iyun tarixlərində isə ikinci faza üzrə 350 nəfərin üzərində sınaq vaksinlənmə həyata keçirilib. 28 gün ərzində hər hansı əks reaksiyaya rast gəlinməyib.

Araşdırmaların nəticələrinə əsasən, "The Lancet" jurnalı bildirir ki, adıçəkilən vaksin yaşlı şəxslərin dözümlülüyünə müsbət təsir edir və heç bir təhlükəsi yoxdur.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) işçi qrupunun üzvü Vüsalə Yaşar deyib ki, peyvənd edilməkdən qorxanlar var və bundan daha çox xroniki xəstəliyi olanlar ehtiyat edirlər. Onlar çox vaxt əks-reaksiya yaranmasından və yaxud mövcud xəstəliklərinin kəskinləşməsindən çəkinirlər. Hətta həmin səbəbləri əsas gətirərək peyvənd olunmaqdan imtina edənlər də var: "Lakin peyvəndin üstünlüklərindən xəbərdar olanlar nəinki özlərini, hətta yaşlı ailə üzvlərini də bu prosesə cəlb edirlər. Hətta Parkinson xəstələrinə peyvənd edilməsi heç bir əks-təsirə səbəb olmayıb. Şəkərli diabeti olanlar da xüsusi risk qrupu sayılırlar və onların, eləcə də xroniki ürək-damar, tənəffüs sistemi xəstəlikləri olanların COVID-19-u daha ağır keçirə biləcəkləri ehtimal edildiyinə görə birincilər sırasında vaksinasiya olunmalıdırlar".

V.Yaşarın sözlərinə görə, vaksinasiya yoluxma, ağırlaşma, ölümcül xəstəliklərdən qorunmaq üçündür. Məhz bu yolla təbii çiçək və digər xəstəliklərin kökü kəsilib. Bəzi infeksion xəstəliklərə qalib gəlməyin yeganə yolu vaksinasiyadır. İndi ölkəmizdə tətbiq edilən "CoronoVAC" peyvəndi inaktivdir, yəni orqanizmə qarşılaşa biləcəyimiz virusun modeli inyeksiya edilir. Həmin modeli immun sistemi tanıdığına və ona qarşı müdafiə silahı olduğuna görə, orqanizm virusla qarşılaşan zaman ona hazır olur: "Təəssüf ki, bəzi insanlar vaksinasiyadan sonra heç bir qorunma tədbirinə əməl etməyə ehtiyac olmadığını düşünürlər, lakin bu qətiyyən doğru deyil. Vaksinasiyanın qoruyuculuğu 60-90 faiz arasında dəyişir. Vaksinasiyadan sonra orqanizmdə yaranan anticisimlərin miqdarı fərdi xarakter daşıyır və yaranan müdafiə sisteminin nə qədər davam edəcəyi və qoruyacağı barədə məlumat yoxdur. Lakin indi istifadə olunan vaksinin qoruyuculuğunun etibarlılığına və uzun müddət davam edəcəyinə ümid böyükdür. Əgər əhalinin 70-80 faizinə həmin peyvəndlər vurulsa, infeksiyanın yoluxma zəncirini qırmaq mümkün olacaq. Tərəzinin bir gözünə COVID-19 xəstəliyi və onun ağırlaşmalarını, digər gözünə isə peyvəndin ehtimal olunan yan təsirlərini, yəni müvəqqəti qızartı, şişkinlik və başağrılarını qoysaq, əlbəttə ki, vaksinasiya daha doğru seçim olar".

Vüsalə Yaşar qeyd edib ki, peyvənd üç həftə fasilə ilə iki dozada vurulur. Nəzərə almaq lazımdır ki, ilk iynə və yaxud ikinci inyeksiya ediləndən sonra dərhal orqanizmdə infeksiyaya qarşı qoruyuculuq yaranmır. Ümumiyyətlə, peyvənddən təxminən 56-60 gün keçəndən sonra virus infeksiyasına qarşı qoruyuculuq formalaşır. Ona görə də peyvənd olunanlar da mütləq əl gigiyenası, maska taxmaq və məsafə saxlamaq kimi qaydalara əməl etməlidirlər.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Ümumdünya Səhiyyə Təşkilatı Şamaxıda "PROACT - Qayğı" layihəsinə başlayıb



Fevralın 12-də Şamaxıda "PROACT - Qayğı" layihəsinin icrasına başlanılıb.

AZƏRTAC xəbər verir ki, layihə COVID-19 infeksiyasının yayılması şəraitində vacib səhiyyə xidmətlərinin göstərilməsində baş verə biləcək çatışmazlıqların qarşısını almaq üçün ilkin səhiyyə sisteminin gücləndirilməsi məqsədi daşıyır. Habelə layihə Azərbaycan üçün məqsədəuyğun ilkin səhiyyə sistemi modelinin yaradılmasını nəzərdə tutur. Bu model genişləndirilərək ölkənin digər ərazilərində də tətbiq edilə bilər.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyi tərəfindən həyata keçirilən layihə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Böyük Britaniyanın "Ukaid", Rumıniyanın "RoAid" təşkilatları və Universal Səhiyyə Əhatəsi Təşəbbüsü (ÜST-nin tərəfdaşları ilə ortaq layihəsi) tərəfindən maliyyələşdirilir.

ÜST-ün Azərbaycandakı nümayəndəliyi layihənin icra olunmasında Şamaxı Rayon İcra Hakimiyyəti, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Heydər Əliyev Fondu, UNICEF və BMT-nin Əhali Fondu ilə tərəfdaşlıq edir.

Bu münasibətlə keçirilən tədbirdə layihə tərəfdaşları adından ÜST-ün Azərbaycandakı nümayəndəsi Hande Harmancı, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, USAID-in Azərbaycan üzrə missiyasının direktoru Caydev Sinqx, UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbərinin müavini Min Yuan, Çarhan kənd tam orta məktəbin direktoru Afaq Orucova çıxış edərək layihənin Şamaxı rayonu və digər yerlərdə ilkin səhiyyənin təkmilləşdirilməsi sahəsindəki müsbət təsirindən danışıblar. Milli Məclisin Səhiyyə komitəsinin üzvü, Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Soltan Məmmədovun onlayn çıxışı da dinlənilib.

Tədbirdə rayonun səhiyyə sistemi ilə bağlı məlumatların daha etibarlı və əlçatan olması məqsədilə hazırlanan geopolitik sistemin təqdimatı keçirilib. Layihənin təqdimatı və müzakirələrdən sonra Hande Harmancı, Min Yuan və Caydev Singx jurnalistlərə müsahibə veriblər.

Sonra tədbir iştirakçıları cari il fevralın 4-dən etibarən yerli tibb işçilərinə təlim keçməyə başlayan Şamaxı Təlim Mərkəzində də olublar. ÜST-ün texniki dəstəyi ilə UNICEF tərəfindən həyata keçirilən "PROACT - Təlim" layihəsi çərçivəsində yaradılan mərkəz mayın 15-dək fəaliyyət göstərəcək. Burada Şamaxı və ətraf rayonlardan olan 400 nəfərədək tibb işçisinə ilkin səhiyyə xidmətləri və COVID-19-a qarşı cavab tədbirləri sahəsində təlim keçiriləcək. Təlim mərkəzi daha sonra Şamaxı Rayon Mərkəzi Xəstəxanası nəzdində yerli təlim qurumu kimi fəaliyyətini davam etdirəcək.

"PROACT - Qayğı" layihəsinin tərəfdaşları daha sonra rayonun Çarhan və Quşçu kəndlərindəki kənd həkim məntəqələrinə gəliblər. Bu kəndlərdə yerli tibb işçiləri və əhali ilə tanış olmaq imkanı əldə edən layihə tərəfdaşları onların ilkin səhiyyə sahəsindəki ehtiyaclarını müzakirə ediblər.

# *Həkim-epidemioloq:* "COVID-19 əleyhinə vaksin pandemiyadan qurtulmağımızın yeganə yoludur"

"Ölkəmizdə yanvarın 18-dən etibarən COVID-19 əleyhinə vaksinasiyaya start verilib. Əvvəlcə səhiyyə işçiləri vaksinasiyaya cəlb olunublar. Mən də koronavirus əleyhinə peyvənd olundum. Həm məndə, həm də digər həmkarlarımda heç bir yan təsir müşahidə olunmadı. İkinci doza 28 gündən sonra, yəni gələn həftədən etibarən vurulacaq".

AZƏRTAC xəbər verir ki, bunu Kliniki Tibbi Mərkəzin həkim-epidemioloqu Bənövşə Abdullayeva deyib.

O bildirib ki, bəzi vətəndaşlar peyvənd olunmaqdan çəkinirlər. Buna səbəb kimi əziyyət çəkdikləri xəstəliklərin vaksin vurdurduqdan sonra aktivləşməsindən, ya da peyvənddən sonra hansısa fəsadlaşmaların baş verəcəyindən qorxduqlarını dilə gətirirlər. Çünki bəzi sosial şəbəkələrdə peyvəndin ciddi əks-təsirlər yaratması, onun ziyanlı olması haqqında dezinformasiyalar yayılıb: "Vətəndaşlar bilməlidirlər ki, vaksinasiya prosesi hər zaman bəzi infeksion, o cümlədən digər yoluxucu xəstəliklərin qarşısını almaqda xüsusi rola malik olub. Belə ki, uşaq yaşlarından suçiçəyi, qızılca, məxmərək kimi xəstəliklərə qarşı peyvənd olunmaqla onlardan qorunuruq. COVID-19 əleyhinə vaksin pandemiyadan qurtulmağımızın yeganə yoludur. Həmin vaksinin vurulması qaydaları var və hər kəs peyvənd olunmur. Peyvənd vurulması üçün həkim müayinəsi və göstərişi vacibdir. Xroniki xəstəliklərin aktivləşməsi dövründə olanlar, onkoloji xəstəliklərdən əziyyət çəkənlər, 18 yaşadək uşaqlar, vaksinin tərkibindəki maddələrə qarşı allergiyası olanlar, hamilələr, südvermə prosesində olan qadınlar vaksinasiyadan kənarda qalırlar. Vaksinin inyeksiya yerində qızartı, ağrı olması, baş ağrısı, yorğunluq, halsızlıq, yüngül temperatur kimi yan təsirləri ola bilər. Ciddi yan təsirlərə də çox nadir hallarda rast gəlinir. Ölkəmizdə üç həftədən çoxdur vaksinasiya aparılır. Bu müddət ərzində ciddi yan təsirlər qeydə alınmayıb.

Digər bir tərəfdən, vaksin vurduranlar arxayınlaşmamalı, qoruyucu vasitələrdən, gigiyena qaydalarından imtina etməməlidirlər. Vaksinasiyadan kənarda qalanları nəzərə alaraq pandemiya bitənədək maska taxılmalı, gigiyena qaydalarına əməl olunmalı, sosial məsafə prinsipləri gözlənilməlidir. Xatırlatmaq istərdim ki, peyvəndin ikinci dozası birincidən 21-28 gün sonra vurulur. Qanda antitellər isə ilk dozadan təxminən bir ay sonra yaranır. Vaksin vurulandan sonra xəstəliyə yoluxma ehtimalı az da olsa var. Bu zaman xəstəlik ağırlaşma olmadan yüngül keçirilir. Peyvənddən sonra yaranan qoruyuculuq individual olsa da, əmələ gələn immunitetin 6 aya qədər qaldığı deyilir. Pandemiyanın aramızdan getməsi üçün əhalinin 60-70 faizində immunitet formalaşmalıdır ki, hazırda bunu da yalnız vaksinasiya ilə etmək mümkündür. Hər kəsi qorxub-çəkinmədən vaksinasiya prosesində aktiv olmağa səsləyirəm".

# Koronavirusdan 226 nəfər sağalıb, 191 nəfər isə yoluxub




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından 226 nəfər müalicə olunaraq sağalıb, 191 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 231 min 840 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 226 min 345 nəfər müalicə olunaraq sağalıb, 3173 nəfər vəfat edib. Aktiv xəstə sayı 2322 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 485 min 483 test aparılıb. Dünənki test sayı isə 7260-dır.

# Yaxın günlərdə regionlarda polis əməkdaşlarının vaksinasiyasına başlanılacaq





"Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"nın birinci mərhələsinə uyğun olaraq Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının da vaksinasiya prosesinə start verilib. İlkin olaraq fevralın 6-dan etibarən nazirliyin Bakıda xidmət aparan əməkdaşları peyvəndləməyə cəlb olunublar. Vaksinasiya DİN-in Tibb İdarəsinin Arif Heydərov adına Respublika Hospitalında, 1 və 2 saylı poliklinikalarında həyata keçirilir. Bu günədək aparılan peyvəndləmə prosesi zamanı əməkdaşlar arasında fəsadlaşma halları qeydə alınmayıb".



Bu sözləri AZƏRTAC-a müsahibəsində DİN-in Tibb İdarəsinin şöbə rəisi, polkovnik-leytenant Loğman Zeynalov deyib.

Şöbə rəisinin sözlərinə görə, vaksinasiya mütəşəkkil qaydada həyata keçirilir və bu zaman strategiyanın əsas prinsiplərindən olan könüllülük prinsipi əsas götürülür: "Vaksinasiya üçün müraciət edən əməkdaş öncə həkim tərəfindən müayinə olunur. Hər hansı əks-göstəriş halı olmazsa, həmin şəxsə vaksin vurulur. Birinci dozadan 28 gün sonra həmin əməkdaşa ikinci doza vurulacaq. Vaksinasiya strategiyasında göstərildiyi kimi, son altı ay ərzində koronavirusa yoluxanların, onkoloji xəstəliklərdən, o cümlədən yüksək qan təzyiqindən əziyyət çəkənlərin və dərman preparatlarına qarşı allergiyası olanların peyvəndlənməsi məsləhət görülmür".

L.Zeynalov qeyd edib ki, yaxın müddətdə regionlarda da polis əməkdaşlarının vaksinasiya prosesinə başlanılacaq. Onların vaksinasiyası Səhiyyə Nazirliyinin və TƏBİB-in yerli müalicə-profilaktika müəssisələrində həyata keçiriləcək.

# Kəngərli rayonunun tibb işçiləri vaksinasiyaya cəlb ediliblər

Kəngərli Rayon Mərkəzi Xəstəxanasının, Gigiyena və Epidemiologiya Şöbəsinin, rayonun kənd həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin tibb işçiləri vaksinasiyaya cəlb ediliblər.





AZƏRTAC xəbər verir ki, rayonda 142 tibb işçisinə təhlükəsizliyinə və effektivliyinə görə seçilən "CoronaVac" vaksini vurulub. Vaksinasiya zamanı heç bir narahatlıq müşahidə olunmayıb.

Qeyd edək ki, vaksinasiya prosesi muxtar respublikanın bütün rayon, şəhər tibb müəssisələrində iki mərhələdə aparılacaq. Əsas hədəf epidemioloji vəziyyətin sabitləşdirilməsi, xəstələnmə və ölüm hallarının azaldılmasıdır.

"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"na müvafiq olaraq muxtar respublikanın səhiyyə müəssisələrində həyata keçirilən tədbirlər davam etdirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində xüsusi komissiya fəaliyyət göstərir.

# Sumqayıtda karantin qaydalarını pozan vətəndaşlar cərimələniblər

Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları tərəfindən COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə şəhər ərazisindəki iri supermarketlər şəbəkələrində, apteklərdə və fəaliyyətinə icazə verilən digər qapalı məkanlarda gücləndirilmiş nəzarət-profilaktik tədbirlər həyata keçirilir.




Qapalı məkanlarda sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən şəxslər qanunvericiliyə uyğun olaraq inzibati məsuliyyətə cəlb olunurlar.

Şəhər polis idarəsindən AZƏRTAC-a bildirilib ki, cari ilin əvvəlindən, ümumilikdə, 776 protokol tərtib olunub. Onlardan 250-si İnzibati Xətalar Məcəlləsinin 211.1-ci maddəsi, qalanları isə 211.2-ci maddəsi üzrə yazılıb. Bu protokollar üzrə 113200 manat məbləğində cərimə tərtib olunub ki, bunun da 27200 manatı artıq ödənilib.

# İQTİSADİ İNKİŞAF və SOSİAL RİFAH

## Dünya "Cənub qaz dəhlizi"nin möhtəşəm layihə olduğunu bir daha təsdiqlədi

### Layihənin Məşvərət Şurasının iclasında bu vurğulanmaqla yanaşı, perspektivlər və çağırışlar ətrafında fikir mübadiləsi də aparıldı



*Əvvəli 1-ci səh.*

Budəfəki toplantının özəlliyi həm də ondadır ki, "Cənub qaz dəhlizi" layihəsi artıq uğurla yekunlaşıb. Ötən ilin son günü layihənin axırıncı - dördüncü seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) işə salınaraq Azərbaycan qazını Avropaya çatdırıb.

Daha ətraflı desək, 2020-ci il dekabrın 31-də qaz TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) interkonnektor vasitəsilə həm Yunanıstana, həm Bolqarıstana nəql edilib. Mavi yanacaq bu iki ölkəni keçərək TAP-la "Snam Rete Gas" arasında interkonnektor nöqtəsində İtaliyaya daxil olub. Yəni İtaliya və Avropa üçün yeni qaz təchizatı mənbəyi işə düşüb. Bu ilin yanvar ayında TAP-la İtaliyaya 340 milyon kubmetr qaz ötürülüb. Mavi yanacağın təxminən 70 milyon kubmetri revers axın formasında interkonnektor nöqtəsi ilə Avropaya ixrac olunub. İlk dəfə qədim qitəni Türkiyə və Balkanlar vasitəsilə Xəzərlə birləşdirən yeni marşrut olduğu üçün "Cənub qaz dəhlizi"nin tam sistem kimi işə başlaması tarixi hadisədir.

Prezident İlham Əliyev 7-ci toplantıdakı çıxışında layihənin bütün iştirakçılarını bu münasibətlə təbrik edib. Dövlət başçısı layihədə bilavasitə iştirak edən, onun uğurla sona çatmasına dəstək verən ölkələrə, şirkətlərə, maliyyə qurumlarına təşəkkür edərək bildirib ki, bu möhtəşəm işlər möhkəm əməkdaşlıq və tərəfdaşlıq şəraitində gerçəkləşib: "Bu, bir daha onu nümayiş etdirir ki, komanda şəklində aparılan iş yaxşı nəticə verir. Biz əhəmiyyətli irəliləyişə nail olmuşuq. "Cənub qaz dəhlizi" enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi layihəsidir. Bu gün enerji təhlükəsizliyi bütün ölkələrin milli təhlükəsizlik məsələsidir. Enerjinin şaxələndirilməsi də istehlakçı və istehsalçı ölkələr üçün vacibdir. Beləliklə, zənnimcə, biz misilsiz əməkdaşlıq formatına nail olmuşuq. Düzgün hesablanmış maraqlar balansı var ki, burada istehsalçı olan Azərbaycanın maraqları tranzit və istehlakçı ölkələrin maraqları ilə üst-üstə düşür. Məhz bunun nəticəsində bəzilərinin o qədər də real hesab etmədikləri bir layihənin həyata keçirilməsi mümkün olmuşdur".

"Cənub qaz dəhlizi" bir sıra parametrlərinə görə nadir layihədir. Dəhliz 3500 kilometrlik məsafə qət edir. Həm də hündürlüyü 2500 metr olan dağlardan keçir, 100 kilometrdən çox hissəsi isə Adriatik dənizinin dibi ilə uzanır. Bununla belə, görülmüş işlər ən yüksək ekoloji standartlara cavab verir.

Digər önəmli bir cəhət odur ki, səmərəli idarəçilik və düzgün planlaşdırma nəticəsində layihənin dəyəri ilk hesablanmış məbləğdən - 44,6 milyard dollardan 33 milyard dollara enmişdir. Halbuki tikinti layihələri həyata keçirilərkən adətən dəyər azalmır, əksinə, artır. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan "Cənub qaz dəhlizi"nin dörd seqmentinin hamısında iştirak edib və layihəyə bütövlükdə 10 milyard dollar həcmində vəsait xərcləyib.

Məşvərət Şurasının iclasları çərçivəsində gələcək işlərə nəzər salınması bir ənənə olduğundan 7-ci toplantıda da bu barədə ətraflı danışılmışdır. Azərbaycanın öz enerji resurslarını inkişaf etdirəcəyini bildirən Prezident İlham Əliyev demişdir: "Hazırda kəşfiyyat və hasilat mərhələsində olan bir neçə yataqla bağlı çox ümidverici perspektivlər var. Xüsusilə 400 milyard kubmetr qaz ehtiyatına malik olan "Babək" yatağını qeyd edə bilərəm. "Abşeron" qaz-kondensat yatağının 350 milyard kubmetr ehtiyatı var və ümid edirəm ki, orada hasilat gələn il başlayacaqdır. Digəri isə "Ümid" yatağıdır ki, orada ən azı 200 milyard kubmetr təbii qaz ehtiyatı mövcuddur. Bunlar təsdiqlənmiş ehtiyata malik olan yataqlardır ki, onlar Xəzər dənizinin Azərbaycana məxsus sektorunda qaz hasilatına töhfə verəcəkdir. Kəşfiyyat mərhələsində olan digər layihələr də var və biz növbəti illərdə yeni kəşflərin olacağına ümid edirik. Beləliklə, şaxələndirilmiş bu neft-qaz kəmərləri şəbəkəmizin hasilat gücünün artırılmasına xidmət edəcəkdir".

Birgə planlara gəldikdə isə, İonik-Adriatik boru kəmərinə dair məsələyə toxunulmuşdur. Belə ki, TAP-ın başa çatdırılması İonik-Adriatik kəmərinin inşasına imkan yaradır. Qərbi Balkan ölkələri ilə artıq anlaşma memorandumu imzalanıb. Bu kəmər çəkildikdən sonra ölkəmiz təchizat marşrutlarını şaxələndirmək imkanı əldə edəcək və Qərbi Balkan dövlətləri üçün yeni imkanlar yaranacaq.

Şaxələndirmə dedikdə yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsindən söhbət gedir. Belə ki, Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir. Təsdiqlənmiş təbii qaz ehtiyatımız 2,6 trilyon kubmetr təşkil edir və yeni məlumatlara görə, bu həcm daha da artıq ola bilər. "Azəri-Çıraq-Günəşli" yataqlarındakı "dərin qaz"ı da nəzərə alsaq, potensial haqqında aydın təsəvvür yaranar. Azərbaycan və Türkmənistan arasında "Dostluq" yatağına dair Anlaşma Memorandumunun imzalanması da Xəzər dənizi və onun hüdudlarından kənarda gələcək enerji əməkdaşlığı üçün çox faydalı olacaq.

Beləliklə, biz indi "Cənub qaz dəhlizi"nin birinci fazasını başa çatdırdıqdan sonra növbəti faza üzərində düşünürük. Yeni gələcəkdə Azərbaycan işlənməyən yataqlardan qaz hasilatını təmin edəcək, yeni təchizatçılar üçün isə yeni tranzit imkanları yaranacaq.

Təsadüfi deyil ki, Avropa Komissiyasının enerji məsələri üzrə komissarı xanım Kadri Simson da toplantıdakı çıxışında keçirilən tədbirin təkcə hazırkı uğurları qeyd etmək üçün deyil, həm də perspektivlər və çağırışlar ətrafında fikir mübadiləsi aparmaq baxımından vacib olduğunu dedi. Avropa Komissiyasının qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi Azərbaycan qazının tez bir zamanda Qərbi Balkanlara da çatdırılması arzusunu ifadə etdi və bildirdi ki, yaxın vaxtda bu barədə azərbaycanlı tərəfdaşları ilə müzakirələr aparmaq istəyirlər.

Toplantıda çıxış edənlərin hər biri "Cənub qaz dəhlizi" layihəsinin qlobal əhəmiyyətini və onun enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu vurğuladı. Bu dəhlizin uğurlu fəaliyyəti artıq bir reallıqdır və o, qaz təchizatının təhlükəsizliyinin və şaxələndirilməsinin təminatçısı olduğunu təsdiqləyir. Bu isə Məşvərət Şurasının iclasında qaldırılan yeni məsələlərin də müvəffəqiyyətlə həll olunacağı üçün möhkəm zəmindir.

**Flora SADIQLI,**
**"Azərbaycan"**

## Azərbaycan ötən il 1,8 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac etmişdir

**2020-ci ildə Azərbaycan dünyanın 183 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 111 ölkəyə məhsul ixrac, 174 ölkədən idxal olunmuşdur.**

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2020-ci ildə ölkənin xarici ticarət dövriyyəsi 24201,1 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 13470,4 milyon dollarını və ya 55,7 faizini ölkədən ixrac olunmuş məhsulların, 10730,7 milyon dollarını (44,3 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 2739,7 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 26,8, real ifadədə 21,9, o cümlədən idxal 36, ixrac isə 12 faiz azalmışdır.

2020-ci ildə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki illə müqayisədə faktiki qiymətlərlə 5,3 faiz, real ifadədə isə 16,0 faiz azalaraq 1851,3 milyon dollar təşkil etmişdir.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 30,4 faizini İtaliyaya, 18,9 faizini Türkiyəyə, 5,2 faizini Rusiyaya, 3,8 faizini Yunanıstana, hər biri 3,4 faiz olmaqla, Xorvatiya və Gürcüstana, 3,3 faizini Hindistana, 3,2 faizini İsrailə, 3,1 faizini Çinə, 2,6 faizini Ukraynaya, 2,4 faizini İspaniyaya, 2,3 faizini Tunisə, hər biri 1,7 faiz olmaqla, Portuqaliya, Almaniya və Çexiyaya, 1,6 faizini İsveçrəyə, 11,3 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (37,3 faiz), Türkiyəyə (20,4 faiz), İsveçrəyə (12,1 faiz), Gürcüstana (6,9 faiz), Çinə (2,4 faiz), Ukraynaya (2,3 faiz), İtaliyaya (2,1 faiz), İrana (1,5 faiz), Qazaxıstana (1,4 faiz), ABŞ-a (1,3 faiz), Özbəkistana (1,1 faiz), Almaniyaya (1,0 faiz), Türkmənistana (1,0 faiz), Belarusa (1,0 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,3 faizi Rusiya, 14,6 faizi Türkiyə, 13,2 faizi Çin, 5,9 faizi ABŞ, 5,4 faizi Almaniya, 4,2 faizi Fransa, 3,9 faizi Ukrayna, 3,7 faizi İtaliya, hər biri 2,8 faiz olmaqla, İran və Birləşmiş Krallıq, 1,8 faizi Yaponiya, 1,7 faizi Koreya, 1,4 faizi Belarus, 20,3 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

## Ölkədə aktiv vergiödəyicilərinin sayı 24 faizdən çox artıb

**"Pandemiyanın təsirlərinə baxmayaraq, 2020-ci ildə vergiödəyicilərinin və obyektlərin sayında artım qeydə alınıb".**

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Vergi Xidməti rəisinin müavini, xidmət rəisi vəzifəsinin müvəqqəti icraçısı Orxan Nəzərli deyib.

Xidmət rəsmisi 2020-ci il ərzində ölkədə aktiv vergiödəyicilərinin sayının 24 faizdən çox artaraq 616 mini ötdüyünü, o cümlədən aktiv vergiödəyicilərinin sayında 17 faizdən çox artım olduğunu diqqətə çatdırıb.

## Ötən ay ölkə üzrə pərakəndə ticarət dövriyyəsinin dəyəri 3,2 milyard manat olmuşdur

Cari ilin yanvar ayında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 3,2 milyard manatlıq, o cümlədən 1,7 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 1,5 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır.



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ilin yanvar ayı ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 1,4 faiz, o cümlədən qeyri-ərzaq malları üzrə 4,8 faiz azalmış, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 1,8 faiz artmışdır.

Keçən ay alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 52,8 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 15,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,4 faizi avtomobil benzini və dizel yanacağının, 5,1 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur. Hesabat ayında istehlak məhsullarının dəyər ifadəsində 26,9 faizi ticarət müəssisələri, 49,8 faizi fərdi sahibkarlar tərəfindən, 23,3 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2020-ci ilin yanvar ayı ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 12,2 faiz artmış, fərdi sahibkarlar üzrə 0,1 faiz, bazar və yarmarkalarda 15,7 faiz azalmışdır.

2021-ci ilin yanvar ayında ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla 316,3 manatlıq, o cümlədən 166,9 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 149,4 manatlıq qeyri-ərzaq malları almışdır.

## Şimal-qərb istiqamətində yeni yolun və körpülərin inşasına başlanılıb

Cari ildə icra edilən yol infrastrukturu layihələri arasında respublika əhəmiyyətli avtomobil yolları xüsusi çəkiyə malikdir.

Əhalinin rahat gediş-gəlişində xüsusi əhəmiyyətə malik Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin yenidən qurulması bunun bariz nümunəsidir. Sözügedən avtomobil yolu paytaxtımızı İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ilə birləşdirən ən qısa yoldur.

Dövlət başçısının xüsusi tapşırığı ilə hazırlanan layihədə Muğanlı-İsmayıllı-Qəbələ yolu yenidənqurma nəticəsində 9,7 km qısalaraq 76,8 km təşkil edəcək. Mövcud 2 zolaqlı yol genişləndirilərək 4 hərəkət zolağından ibarət olacaq. Yeni layihə boyu 1 tunel, 1-i asma olmaqla, 8 böyük və 5 kiçik körpü də layihələndirilib. Bunlardan Girdmançay, Talıstançay, Ax-ox çayı, Göyçay çayı və Vəndamçay üzərində yerləşən 5 mövcud körpü 4 zolağa uyğun yenidən qurularaq genişləndirilir. Ağsuçay, Gülyançay və Dəmiraparançay üzərindəki 3 körpü isə trassanın dəyişdirilmiş yeni ox üzərində yenidən 4 zolağa uyğun layihələndirilib tikilir. Bundan başqa, yolboyu kiçik dərələr üzərində yerləşən 5 körpü sökülüb yeni boru şəkilli kiçik körpülərlə əvəzlənir.



Bütün trassa boyu mövcud olan müxtəlif ölçülü yolaltı suötürücü borular da texniki vəziyyətləri pis olduğundan yenilənir. Yolun trassası ilk 2 km-lik ərazidə Muğanlı qəsəbəsinə çatmamış mövcud yolun lokal sürüşmə sahəsindən əvvəl başlanıb sözügedən qəsəbədən və qəsəbədən sonrakı enişdə aktiv sürüşmə sahəsindən yan keçməklə layihələndirilib. Nəticədə yolun Ağsuçayınadək olan hissəsində trassa 1,1, Ağsuçaydan sonrakı hissədə Ağsuçay körpüsü və tunel hesabına 1,4 km qısalır.

Digər hissələrdə layihələndirilən trassa Qəbələ şəhərinədək mövcud yol oxu ilə davam edir. Yolun trassası Qəbələ şəhərinə daxil olmadan soldan yeni trassa ilə Dəmiraparançay vadisindən keçərək şəhərin çıxışında mövcud trassaya birləşəcək. Bunun hesabına yol 5 km qısalır.

## Qarabağın qapısı

### Aparılan abadlıq və quruculuq işləri Yevlaxı tanınmaz edir

*Əvvəli 1-ci səh.*

Qazanılan nailiyyətlər isə axrayınçılıq yaratmır. Yeni ilin yeni hədəfləri fərqlidir. Məqsəd aqrar sektorda səmərəliliyi artırmaq, yüksək məhsuldarlığa nail olmaqdır. Rayonda kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, ölkənin ərzaq təhlükəsizliyinin təminatına sanballı töhfələr vermək üçün bütün imkanlar, mövcud əmək ehtiyatları səfərbər edilib. Hazırda rayonun təsərrüfatlarında yaz-tarla işlərinə ciddi hazırlıq görülür.



Yevlax beynəlxalq əhəmiyyətli nəqliyyat, kommuniksiya xətlərinin keçdiyi strateji ərazi kimi hər zaman diqqət mərkəzində olmuşdur. Bölgədə aparılan tikinti, abadlıq, quruculuq işlərinin önəmi də fərqlidir. Son zamanlar şəhərdə, qəsəbə və kəndlərdə görülən təmir-tikinti işləri zövq oxşayır, rayon əhalisində də, qonaqlarda da xoş ovqat yaradır.

Bu gün Yevlaxda diqqətçəkən ən əsas yenilik sağlam mənəvi-psixoloji mühitin yaradılmasıdır. Fəaliyyətinin əsas prinsiplərini xalqa xidmətlə bağlayan, iş vaxtının çoxunu əhalinin arasında olan, insanları narahat edən problem və çətinlikləri onların öz dilindən eşitməyə çalışan rayon rəhbərliyi Yevlaxda köhnə stereotipləri cəsarətlə dağıdaraq hər kəs üçün əlçatan olmuşdur. Yeni müstəvidə diqqət və qayğıdan qaynaqlanan məmur-xalq münasibətləri bu gün Yevlaxın ictimai-siyasi həyatından qırmızı xətt kimi keçir.







Son zamanlar Yevlaxda təmir, tikinti, abadlıq işləri geniş vüsət almışdır. Şəhərin küçə və prospektlərinin, meydanlarının, parklarının, şəhər ərazisindən keçən Bakı-Gürcüstan dövlət sərhədi avtomobil yolunun işıqlandırılma sistemi yenidən qurulmuş, küçələrdəki mövcud problemlər aradan qaldırılmışdır. Bundan əlavə, hər biri 105 yerlik olan iki uşaq bağçası əsaslı təmir edilmiş, 7500 nəfər əhalinin yaşadığı 6 kəndi birləşdirən Xaldan-Ərəş-Meyvəli kəndlərarası 8 kilometrlik avtomobil yolu əsaslı təmir olunaraq asfaltlanmış, 4,3 kilometrlik Qaroğlan və 3,2 kilometrlik Quşçu kəndlərinin avtomobil yollarının əsaslı təmirinə başlanılmışdır. Ümumi ərazisi 16.900 kvadratmetr olan Dədə Qorqud parkının yenidən qurulması isə başa çatmaq üzrədir. Parkda ulu ozanın heykəli qoyulmuş, səkilərə tamet döşənmiş, yaşıllıq sahəsi salınmış, müasir işıqlandırma dirəkləri basdırılmış, eləcə də ətrafda olan çoxmərtəbəli yaşayış evlərinin dam örtükləri, fasadları təmir edilmiş, ərazidə bulaq kompleksi tikilmiş, ora su xətti çəkilmişdir. Parkın hər iki tərəfində olan avtomobil yolları isə asfaltlanmışdır. Bütövlükdə 2020-ci ildə şəhərdaxili yollara və məhəllələrə 48,9 min kvadratmetr asfalt döşənmişdir.

Yevlaxlılar xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini hər zaman sonsuz məhəbbət və ehtiramla yad edirlər. Bu isti və doğma münasibətin məntiqi nəticəsidir ki, Ulu Öndərin şəhərin mərkəzindəki, əzəmətli abidəsinin önündə hər zaman tər qızıl güllər görmək olar. Heydər Əliyevin abidəsi ətrafında yüksək zövqlə aparılmış təmir və abadlıq işləri isə göz oxşayır. Burada 300 kvadratmetr qranit material işlənməklə ətraf abadlaşdırılmış, yaşıllıqlar yenilənmiş, nadir bəzək və gül kolları əkilmişdir.

Bir sözlə, Vətənin dar günündə döyüşlərə könüllü gedən, ərazi bütövlüyümüz uğrunda canlarından, qanlarından keçən yevlaxlılar bü gün min bir həvəslə doğma yurdun hər qarışını cənnətə döndərməyə çalışırlar.

**Lazım QULİYEV,**
**"Azərbaycan"**

## Astarada Zəfər parkı salınır

Vətən müharibəsində şəhid olanların xatirəsini əbədiləşdirmək məqsədilə Astara şəhərində Zəfər parkı inşa edilir.

AZƏRTAC xəbər verir ki, Astara şəhərinin Heydər Əliyev prospektində inşa edilən parkın ərazisi 1400 kvadratmetrdir.

Artıq parkda əsas abidənin tikintisi, ərazinin hasara alınması və hörgü işləri başa çatdırılıb, hazırda suvaq işləri görülür. Ondan sonra üzlük və tamet daşlarının döşənməsinə başlanılacaq. Abidənin mərkəzində Vətən müharibəsinin qalibi - Azərbaycan əsgərinin abidəsi ucaldılacaq. Parkın ərazisində həmişəyaşıl bəzək kolları və güllər də əkiləcək.

Zəfər parkında tikinti işlərinin aprel ayında başa çatdırılması nəzərdə tutulub.

## 212 min şəxsə elektron qaydada fərdi hesab açılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elekton xidməti vasitəsilə ötən il 212 min şəxsə avtomatik olaraq sosial sığorta nömrəsi (SSN) və bununla da elektron qaydada fərdi hesab açılıb.

2020-ci ilin yanvar ayında fəaliyyətə başlayan bu e-xidmət sığortaolunanların proaktiv qaydada e-sistemdə qeydiyyata alınmasına xidmət edir. İlk dəfə əmək müqaviləsi ilə işə başlayan şəxslə bağlanan əmək müqaviləsinə dair bildiriş e-sistemdə qeydiyyatdan keçdiyi andan işçiyə avtomatik şəraitdə SSN də açılır. Daimi xarakter daşıyan SSN ilə də həmin şəxsin fərdi uçot sistemində fərdi şəxsi hesabı yaranır.

Beləliklə, işçi sosial sığorta sisteminin iştirakçısı kimi, fərdi hesabında gələcək sosial təminatı üçün pensiya kapitalı toplamaq imkanı əldə edir.






# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır





● Ruhumuzun şəhəri

## Şuşada bu il Vaqif poeziya günləri keçiriləcək

**44 gündük Vətən müharibəsində otuz ilə yaxın işğal altında qalan ərazilərimiz Azərbaycan Ordusu tərəfindən azad olundu. Bu böyük Zəfər azərbaycanlıların torpaq, yurd həsrətinə son qoydu. Vətən müharibəsi nəticəsində nail olduğumuz qələbənin sevinci sonsuzdur. Kədərli olan isə işğaldan azad olunmuş ərazilərimizdə gördüyümüz mənzərələrdir. Erməni vandalları bu müddətdə yurd yerlərimizi talan edib, dağıntılar törədib, tikilləri uçurub, yandırıblar. Tarixi-mədəni, dini abidələrimiz də erməni qəsbkarları tərəfindən tar-mar edilib.**



Artıq azad olunmuş həmin ərazilərimizdə tikinti-quruculuq işlərinə başlanılıb. Erməni qəsbkarlarının işğalınadək keçirilmiş ənənəvi tədbirlərin də bərpa olunması nəzərdə tutulub. Prezident İlham Əliyev Vaqif poeziya günlərinin də bərpa olunacağının müjdəsini verib. "Vaqif poeziya günləri bərpa ediləcək. Mən artıq göstəriş vermişəm, bu il keçiriləcək". Prezident İlham Əliyev Şuşa şəhərində Molla Pənah Vaqifin məqbərəsinin qarşısında çıxış edərkən deyib: "Biz artıq Şuşanın bərpasına başlayırıq. İndi baş plan hazırlanır. Bütün binaların təftişi aparılıbdır. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir. Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".

Böyük Azərbaycan şairi və siyasi xadimi Molla Pənah Vaqifin məqbərəsi Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərindədir. Hələ 1967-ci ildə Şuşada olarkən Heydər Əliyev Vaqifin məzarını ziyarət etmək istəyib, ancaq məzarı tapa bilməyib. Onun göstərişi ilə məzar tapılıb, Heydər Əliyev bərbad halda olan, dağılmış məzarı ziyarət edib. Nitqlərinin birində o, gördüyü bu məzarın Vaqifə layiq olmadığını söyləyib. Ulu Öndərin göstərişi ilə Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə və türbə tikilib.

Molla Pənah Vaqifin muzey məqbərə kompleksinin inşasına memar A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında 1977-ci ildə başlanılıb. Kompleks Şuşa şəhərinin Cıdır düşünə yaxın ərazidə şairin məzarı üstündə inşa edilib. Muzeydə Molla Pənah Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan 80-ə yaxın eksponat da sərgilənirdi.

1982-ci il 14 yanvarda Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsinin və Şuşada Poeziya Evinin təntənəli açılışı olub. Azərbaycanın ozamankı rəhbəri Heydər Əliyev mərasimdə iştirak edib. O qarlı gündə keçirilən açılış mərasiminə Şuşaya istedadlı sənət adamları toplaşıb. Həmin gün milli mədəniyyət və sənət bayramına çevrilib.

Azərbaycanın ozamankı rəhbəri Heydər Əliyev hər il Vaqif poeziya günlərinin keçirilməsi barədə göstəriş verib. Həmin tarixdən etibarən hər il avqust ayında Vaqif poeziya günləri təşkil olunub. Tədbirin proqramına şeir gecələri ilə yanaşı, konsertlər də daxil edilib. Ənənəyə çevrilən bu poeziya günləri hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb Şuşada yekunlaşıb.

Böyük təntənəyə çevrilən bu günlər şəhərin erməni quldurları tərəfindən işğalınadək davam edib. 1992-ci ildə erməni qəsbkarları Şuşadakı milli-mənəvi, dini və tarixi-memarlıq abidələrimizi talayaraq məhv edib, həmçinin Molla Pənah Vaqifin məqbərəsini dağıdıblar. Mənfur düşmənin torpaqlarımızı işğal etməsi nəticəsində uzun illərdir ki, Vaqif poeziya günləri də Şuşada keçirilməyib.

Torpaqlarımızın Ermənistanın işğalından azad olunması Azərbaycanın mədəni ikişafına da yeni nəfəs verəcək. Vaqifin məqbərəsi yenidən əvvəlki gözəlliyinə qayıdacaq. Vaqif poeziya günlərinin bərpası da qayıdışımızın təntənəsi olacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Sənət beşiyi



**Xarıbülbül...**
**Ötən ilin 8 noyabr tarixinədək 30 il Qarabağın kədər, ayrılıq, onlardan doğan nisgilin simvoluna çevrilən bu "dağlar gözəli" haqqında o qədər əfsanə, rəvayət, hekayət, nəhayət, hicrandolu "nağıl" eşitmişik ki...**
**Xalqımızın dilində ağı, bayatı kimi səslənən "bağrıqan" gül Xalq mahnısına da çevrilib.**

## "Xarıbülbül" Qələbə simvoluna çevrilib Cıdır düzünə qayıdır

Vətən bağı al-əlvandır,
Nə gəzirsən, xarıbülbül?
Nədən hər yerin əlvandır,
Köksün altı sarı bülbül?!

Bu mahnı yüz illərdir ki, onu dinləyənlərlə bərabər, ifaçının da qəlbindən qara qanlar axıdıb: Qarabağımızdan, onun zümrüd tacı Şuşamızdan perik düşdüyü, gül açmadığı üçün.

Əfsanəyə görə, xarıbülbül, yəni xar olmuş, qəmli bülbül qədim türk əsatirlərində döyüşdə ağır yaralanmış bir əsgərin son ümididir. Həm də Oğuz xanın alplarından (şəhid olan döyüşçü) birinin son nəfəsdə sinəsində gəzdirdiyi bülbülün ayağına qanlı köynəyindən kəsib sevgilisi Aybikə xanıma göndərdiyi namə ilə bağlı üzüntülü bir nakam sevgi nağılıdır...

Bunlar, əlbəttə, öz zamanında əsatir, əfsanə deyil, həqiqət imiş. Azərbaycan əsgəri öz qəhrəmanlığı ilə o əfsanəyə yenidən can verdi, yaşatdı, reallıq olduğunu təsdiqlədi: ötən ilin 8 noyabrında...

Heç bir "külək", "qasırğa" belə müzəffər Azərbaycan əsgərinin Qarabağa, Şuşaya gedən yolunu bağlaya bilmədi. Rəvayətdə olduğu kimi, bu dəfə də bülbülün qanı axdı: şəhid oldu! Lakin o gülü - Qarabağı, Şuşanı əyilməyə qoymadı! Xarıbülbülün əzəməti, məğrurluğu, haqsızlığa qarşı əyilməz duruşu onu əfsanədən qələbə simvoluna çevirdi!



Xarıbülbül Şuşaya sədaqətlidir. Bəlkə də elə buna görə qayıdışın, qovuşmağın rəmzi kimi biz onu möhtəşəm Qələbəmizin simvolu kimi seçdik, bu incinin üzərində dayandıq.

Şuşanın işğaldan azad edilməsindən sonra bu qədim mədəniyyət şəhərini ziyarət edərkən Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev ötən illəri xatırlatmaqla yanaşı, görüləcək işlərdən, qalalar və abidələr məskəninin yenidən canlandırılacağını, əvvəlki növrağının özünə qaytarılacağını da orada bəyan etdi.

"Bu il Şuşada "Xarıbülbül" festivalı və Vaqif poeziya günləri keçirilməlidir. Şuşada Vaqif poeziya günləri bərpa edilməlidir. Vaqif poeziya günləri ənənəvi olaraq keçirilirdi. Yadımdadır, mən də atamla birlikdə Vaqif poeziya günlərində olmuşam. Vaqifin məqbərəsinin açılışında olmuşam, o qarlı-şaxtalı havada. İndi Vaqifin məqbərəsini görəndə adamın ürəyi ağrıyır..."

Bu fikirləri Prezident İlham Əliyev Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən söylədi. Ermənistan rejiminin işğal edilmiş ərazilərdə törətdiyi vəhşilikdən danışan dövlətimizin başçısı bir daha vurğuladı ki, nə qədər vəhşiliklər, qəddarlıq ola bilər, həm də axı Azərbaycan xalqı sizə nə edib? Sizə çörək verib: "...Azərbaycan xalqı sizə nə edib ki, ürəyinizdə bu qədər nifrət olsun? Şəhərləri dağıdırsınız, insanları didərgin salırsınız, tarixi abidələri sökürsünüz, nə məqsəd güdürsünüz?! Elə hesab edirlər ki, bizim yaddaşımızdan silinəcək bu vəhşilik?! Biz 44 gün müharibə apardıq, Ermənistanı demək olar ki, tamamilə məğlub etdik. İstənilən addımı ata bilərdik, istənilən addımı! Amma mən demişəm ki, biz mülki əhaliyə qarşı vuruşmuruq. Biz tarixə qarşı vuruşmuruq. Biz dini abidələrə qarşı vuruşmuruq..."

Azərbaycan Prezidenti həmçinin onu da qeyd etdi ki, indi Şuşaya yeni yol çəkilir: "Düzdür, bu yol çox çətin relyefi olan ərazidə çəkilir. Amma biz buna nail olacağıq. Planlaşdırın, bu il bu iki tədbir Şuşa şəhərində keçirilməlidir - "Xarıbülbül" festivalı və Vaqif poeziya günləri.

Bəli, Şuşa özünə, özününkülərə - doğmalarına qovuşub. Şuşanın Cıdır düzündə vaxtilə keçirilən mədəni-kütləvi tədbirlər də qayıdır. Burada əsas diqqətçəkən, dövlət başçısının xüsusi qeyd etdiyi kimi, "Xarıbülbül" festivalı və Vaqif poeziya günlərinin keçirilməsinin bərpasıdır.

Xalq artisti, professor Mənsum İbrahimov onu da xatırladır ki, hər iki tədbir hələ Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi dövrdən başlayıb. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etməsi, Vaqif poeziya günləri və "Xarıbülbül" festivalının bərpası ölkənin mədəni həyatında əlamətdar hadisələrdən biridir: "...Dillərə dastan, əfsanə olan xarıbülbül gülü Şuşanın rəmzi, təbiətin möcüzəsidir. Xarıbülbül sanki gülün üzərinə qonmuş bülbülü xatırladır. Bülbülün bağrının altındakı gül al-qırmızı rəngə boyanıb. Tarixboyu Qarabağa qonaq gələnlər xarıbülbülü seyrə çıxıblar. Qarabağda bu gülün şöhrəti o qədər səs salıb ki, hətta onun şəninə konsertlər verilib, festivallar təşkil edilib. Həmin konsertləri ölkəmizin böyük sənətkarları öz ifaları ilə bəzəyiblər. Bu sırada Azərbaycanın Xalq artisti Qədir Rüstəmovun ifa etdiyi, Azərbaycan musiqisinin "Qızıl Fond"una daxil olan "Sona bülbüllər" mahnısı xüsisi yer alıb..."

"Xarıbülbül" Beynəlxalq Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Yalnız vətəni Azərbaycanda deyil, bütün dünyada ən vacib mədəniyyət tədbirlərindən biri hesab olunan bu festival hər il may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan, SSRİ-nin on beş müttəfiq respublikasının iştirakı ilə keçirilib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Şəhər mədəniyyəti

## Qədim şəhərin əsas "Meydan"ı

**Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı.**



"Rastabazar"ın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan səkiləri örtülü olduğundan bütün fəsillərdə quru və təmiz qalırdı. Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət edirdi. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzi iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas yeri "Rastabazar" küçəsi boyunca inşa edilmiş ibadətgah və ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşa minarəli Cümə məscidindən ibarət idi. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı. Tarixi mənbələrdə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. 1809-cu ilin məlumatına görə, o dövrdə Şuşada 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu da ən azı 1500 sənətkar demək idi. XIX əsrin 60-cı illərində Şuşada illik ticarət gücü 78 milyon rubla bərabər olan ipəksarıma fabrikləri fəaliyyət göstərirdi ki, çox keçmədən həmin müəssisələrin illik istehsal gücü 117 milyon rubla çatmışdı.

"Şuşanın memarlığı" kitabının müəllifi, professor Elturan Avalov qeyd edir ki, Şuşanın əsas "Meydan"ı ətrafında yerləşən binaların təyinatına görə mühüm ictimai-ticari rol oynamışdır. Burada böyük dini mərasimlər- aşura və digər təziyələr keçirilmişdir. "Meydan"ın əsas memarlıq elementləri dini və ticarət binalarıdır ki, bu xüsusiyyət də XVII-XVIII əsrlər Azərbaycan şəhərlərində salınmış meydanlar üçün xarakterikdir.

Əsas memarlıq və ticarət kompleksi olan "Meydan" ilk dini tikilinin ətrafında formalaşdırılmışdır. Sonradan bu cür məscidlər ətrafında inşa edilən ticarət və digər tikililər məscid vəqflərinə aid idi. Məscid və mədrəsələrin saxlanmasına lazım olan xərclər bu binaların istifadəsindən əldə edilən gəlir sayəsində ödənilirdi.

Meydanın memarlıq kompleksinə qərbdən karvansaray, şərqdən və cənubdan uzun həcmli, bir mərtəbəli və böyük girişlərə malik ticarət sıraları daxildir. Cənub tərəfdən həmin ticarət sıraları inkişaf edərək Aşağı bazar küçəsinin ticarət sıraları ilə birləşir. "Meydan"ın bütün bu kompozisiyası cənubda Şuşanın iki minarəli Cümə məscidi ilə tamamlanır. Yuxarı Gövhər ağa məscidinin kifayət qədər hündür olan oxvari minarələri və mərkəzi günbəzi şəhərin memarlıq kompozisiyasında dominantlıq təşkil edir. Yuxarı Gövhər ağa məscidi "Meydan"ın memarlıq ansamblında əsas yeri tutmaqla, ətrafında yerləşən binaları özünə tabe edir. Yalnız ticarət kompleksinin deyil, bütövlükdə şəhərin planlaşdırma nüvəsi olan "Meydan"da iki əsas ticarət magistralı - Rastabazar və onun davamı olan Şeytanbazarla Aşağıbazar küçələri kəsişir.

Görkəmli sovet memarı Nikolay Baranov qeyd edirdi ki, Şərq şəhərlərində Şuşanın Yuxarı məscid kompleksi kimi monumental dini tikililər qonşuluqda yerləşən ticarət yerləri - karvansaraylar və bazarlarla birlikdə şəhərin əsas planlaşdırma elementlərini təşkil edirlər. Monumentallıq və əhəmiyyətlilik təsirinin artırılması üçün Orta Asiyanın orta əsrlər memarlığında geniş tətbiq edilmiş bir neçə iki-üç mərtəbəli binanın bir kompleksdə birləşdirilməsi üsulu Şuşanın meydan mədrəsəsinin inşasında da tətbiq edilmişdir. Mədrəsə Yuxarı Gövhər ağa məscidinin qonşuluğunda tikilmişdir. Mərkəzdə isə "Meydan bulağı" salınmışdır.

***Hazırladı: İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

● Din xadimləri

## "Kor Xəlifə" ayaması ilə tanınan Molla Əli Qarabaği

**Şair, xəttat, müəllim, Şuşa şəhərindəki Merdinli məscidinin axundu Molla Əli Molla Kəlbəli oğlu Qarabaği 1811-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdir. İbtidai təhsilini atasından almışdır. Sonra Təbriz şəhərində mədrəsədə oxumuşdur. Təhsilini tamamlayandan sonra doğma yurduna dönmüş, Şuşa şəhərində Cümə məscidinin nəzdindəki mədrəsədə uşaqlara dərs demişdir. O, Qarabağda "Kor Xəlifə" ayaması ilə tanınırdı.**



Molla Əli gözəl xəttat idi. Bir çox xətləri eynilə yazmaqda mahir ustad kimi tanınmışdı. Onun işlərini hamı heyranlıqla qarşılayırdı. O dövrün bir çox tanınmış ailələri övladlarını Molla Əlinin yanında dərs almağa göndərirdi. Mirzə Kazım isimli bir şagirdi onun yazılarını toplayıb, "İnşai-Mirzə Kazım" adlı kitab çap etdirmişdi. Bu kitab mədrəsələrdə hüsnxət örnəyi kimi öyrədilirdi.

Məşhur din xadimi, şuşalı M.Qarabaği həm də muğam həvəskarı idi. Kor Xəlifə kimi məşhur olan bu ünlü ruhani XIX yüzilin ortasında yeni musiqi məktəbi açmışdı. O burada tələbələrə muğam oxumağı, tar və kamança çalmağı öyrədirdi. Kor Xəlifənin vəfatından sonra musiqi məktəbi də öz fəaliyyətini dayandırmışdır.

Molla Əli 1893-cü ildə dünyasını dəyişmişdir. Onun Salah, Süleyman adlı oğulları vardı.

● Azərbaycan memarlığının unikal abidəsi

## Şuşa qalası



**Azərbaycanın ən gözəl şəhərlərindən biri, Qarabağın baş tacıdır Şuşa. Şəhərin adı bu diyarın saf, şəffaf dağ havasının rəmzi olan "şüşə" sözündəndir. Şuşanın əsrarəngiz təbiəti var. Bənzəri olmayan meşələri, dağları, bulaqları var. Turşsu, İsa bulağı, Səkinə bulağı, İsti bulaq, Soyuq bulaq, Çarıx bulaq, Saxsı bulaq, Qırx bulaq, Yüz bulaq və başqa bulaqlar şəfa mənbəyidir.**

Şuşa tarixi memarlığı ilə də məşhurdur. İşğal olunduğu günə - 1992-ci il 8 mayadək burada 129 memarlıq abidəsi var idi.

Hüsnünə xüsusi gözəllik, əsrarəngizlik verən Şuşa qalası bu şəhəri əhatə edən mühafizə divarlarıdır. Qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza yürüşü zamanı qala uzun müddət mühasirədə saxlanılıb. Amma onu ələ keçirmək cəhdləri baş tutmayıb.

Ərazi strateji baxımdan olduqca əlverişlidir. Şuşa qalası yüksək dağlıq ərazidə yerləşir. Şuşa yaylasının dəniz səviyyəsindən ən hündür yeri 1600, ən alçaq yeri 1300 metrə yaxındır. Bu yüksək dağlıq yaylanın çevrəsi Daşaltı və Xəlfəli çaylarının yataqlarına enən dərin uçurumlarla əhatələnib.

Əvvəllər tikdirdiyi Bayat və Şahbulaq qalalarının əlverişsiz coğrafi mövqeyini nəzərə alan Qarabağ xanı Pənahəli xan 1753-cü ildə Şuşa qalasının bərpa edilməsi haqqında qərar verib. Qarabağ xanlığının mərkəzi bura köçürülüb. Qala bərpadan sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılıb.

Azərbaycan memarlığının incilərindən olan Şuşa qalası Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın tikilməsində əsasən yerli daşlardan və əhəng-yumurta sarısı qatışığından istifadə olunub.

Şuşa qalasının dörd qapısı olub. Onlardan Gəncə qapısı yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir. Qala yaxınlığında onu xarici aləmlə əlaqələndirən yüksək memarlıq keyfiyyətləri olan körpü də inşa edilib. Həmin körpü də Qala körpüsü kimi tanınır.

Şuşanın xarici aləmlə əlaqəsini təmin edən qapılardan üçünün - Gəncə, Ağoğlan və İrəvan qapılarının adları bizim dövrümüzədək gəlib çatıb.

Dördüncü qapının isə nə adını, nə də yerini indiyədək müəyyənləşdirmək mümkün olmayıb. Güman edilir ki, qala divarları İbrahimxəlil xan tərəfindən yenidən tikilərkən həmin qapı ləğv edilib.

***"Azərbaycan"***

# Onlar bizə əmanət!








**“YAŞAT” Fondu Vətən müharibəsində yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması və şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi üzrə işləri davam etdirir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qazimiz Qurban Əliyevin, şəhidimiz Telman Kəlbiyevin oğlu Səid Kəlbiyevin, şəhidimiz Ağacan Cəbrayılovun qızı Ləmanın və oğlu Sədinin, şəhidimiz Ağamirzə Gülmalıyevin atası Ağabəy Gülmalıyevin əməliyyat xərcləri fond tərəfindən qarşılanıb.

Xatırladaq ki, “YAŞAT” Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədilə “yashat.gov.az” portalı istifadəyə verilib.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

## Baş Prokurorluğun sosial şəbəkələrdəki daha bir səhifəsi rəsmi olaraq təsdiqlənib

**Baş Prokurorluğun sosial şəbəkələrdəki daha bir səhifəsi rəsmi olaraq təsdiqlənib. Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.**

Hazırda sosial şəbəkələr informasiya mübadiləsində ən önəmli vasitələrdən birinə çevrilib. Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti prokurorluq orqanlarının fəaliyyətinə dair məlumatların əhaliyə, o cümlədən kütləvi informasiya vasitələrinə operativ şəkildə çatdırılmasını təmin etmək üçün “Facebook”, “Instagram”, “Twitter”, “YouTube”, “Telegram” sosial şəbəkələrindən istifadə edir.

Fevralın 11-də isə Azərbaycan Respublikası Baş Prokurorluğunun “Telegram” kanalı (https://t.me/prokurorluq) rəsmi olaraq mavi nişan vasitəsilə təsdiqlənib.

Xatırladaq ki, ötən il noyabrın 26-da Azərbaycan Respublikası Baş Prokurorluğunun “Facebook” səhifəsi (https://www.facebook.com/prokurorluq/), cari il yanvarın 21-də isə “Instagram” səhifəsi (https://www.ınstagram.com/prokurorluq/) rəsmi olaraq mavi nişanla təsdiq edilib.

“Təsdiqlənmiş səhifə” (Verified Page) mənasını bildirən mavi nişan orijinal səhifəni saxta səhifələrdən ayırd etməyə imkan verir.

Məsələ ilə bağlı Baş Prokurorluğun Mətbuat xidməti ilə əlaqə saxlayan zaman qurumdan “Telegram” kanalının rəsmi olaraq mavi nişan vasitəsilə təsdiqlənməsinə “SaMedia Agentliyi” tərəfindən kömək göstərildiyi bildirilib.

# 2020-ci ildə Beynəlxalq İnformatika Olimpiadasında uğur qazanan şagirdlərə "Azercell Telekom" tərəfindən hədiyyələr verildi

### Məktəblilərimiz informatika fənni üzrə müxtəlif miqyaslı beynəlxalq olimpiadalarda ölkəmizi uğurla təmsil edərək 1 qızıl, 1 gümüş və 8 bürünc medal olmaqla, ümumilikdə, 10 medal qazanıblar

**Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən icra edilən layihə çərçivəsində "Azercell Telekom" MMC-nin dəstəyilə informatika üzrə beynəlxalq olimpiadalara hazırlaşan məktəblilərimiz ötən il ərzində dəfələrlə mötəbər bilik yarışlarına qatılaraq yüksək nəticələr əldə ediblər.**






2020-ci ilin ilk belə yarışı yanvar ayında Qazaxıstanın Almatı şəhərində keçirilən 16-cı Beynəlxalq Jautıkov Olimpiadası olub. 20 ölkədən 588 şagirdin iştirak etdiyi bu yarışmada informatika fənni üzrə Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdləri Abutalıb Namazov (hazırda təhsilini ABŞ Massaçusets Texnologiyalar İnstitutunda (MIT) davam etdirir) qızıl, Murad Eynizadə (hazırda təhsilini Cənubi Koreyanın Elm və Yüksək Texnologiyalar İnstitutunda (KAIST) davam etdirir) gümüş və Gəncə şəhər 15 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar.

Azərbaycan məktəbliləri ötən ilin avqustunda keçirilən Asiya Pasifik İnformatika Olimpiadasında da 33 ölkədən olan iştirakçılar arasında fərqlənməyi bacarıblar. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Murad Eynizadə və Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin X sinif şagirdi Əziz Hüseynov bu nüfuzlu yarışmada bürünc medal sahibi olublar.

Sentyabr ayında Sinqapurda təşkil olunan və virtual formada keçirilən 32-ci Beynəlxalq İnformatika Olimpiadasında da “Azercell”in dəstəklədiyi Azərbaycan komandasının üzvləri yaddaqalan nəticə əldə edərək 3 medal qazanıblar. 350-yə yaxın iştirakçı arasında üç azərbaycanlı şagird - Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin X sinif şagirdi Əziz Hüseynov, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdləri Abutalıb Namazov və Murad Eynizadə bürünc medala layiq görülüblər.

Ə.Hüseynov daha sonra Bolqarıstanın Şumen vilayətində informatika fənni üzrə 12-ci Beynəlxalq Payız Turnirində də uğurlu nəticə nümayiş etdirib. O, 17 ölkədən 403 iştirakçının qatıldığı turnirdə bürünc medal qazanıb.

16-22 dekabr 2020-ci il tarixlərində Moskva şəhərində keçirilən Beynəlxalq Meqapolislər Olimpiadasında Bakı şəhəri 269 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Amin Cəlilov bürünc medal əldə edib.

## FHN işğaldan azad edilmiş torpaqlarımıza icazəsiz səfərlərin təhlükəli olması barədə əhalini maarifləndirmə işlərinə başlayıb




Məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilərimizə xüsusi icazə olmadan səfər edən mülki şəxslər arasında minaya düşərək həlak olan və ya yaralananlar var.

Belə faciəvi halların baş verməsinin qarşısını almaq və əhalini işğaldan azad olunmuş ərazilərə qanunsuz səfərlərdən çəkindirmək məqsədilə Fövqəladə Hallar Nazirliyi (FHN) işğaldan azad edilmiş ərazilərə yaxın yaşayış məntəqələrində maarifləndirmə tədbirlərinə başlayıb.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, Füzuli, Tərtər, Ağdam, Ağcabədi, Xocavənd və Cəbrayıl rayonlarının yaşayış məntəqələrində həyata keçirilən maarifləndirmə tədbirləri zamanı əhaliyə işğaldan azad olunmuş ərazilərdə hazırda minatəmizləmə əməliyyatlarının aparıldığı, bu ərazilərə indiki halda səfərlərin həyati təhlükə daşıdığı, eyni zamanda bu cür qanunsuz səfərlərin hüquqi məsuliyyət yaratdığı izah olunur. Maarifləndirmə tədbirlərinin davam etdirilməsi nəzərdə tutulur.

Nazirlik bir daha insanları işğaldan azad olunmuş ərazilərə xüsusi icazə olmadan səfər etməkdən çəkinməyə çağırır, bunun həyat və sağlamlıq üçün təhlükəli olduğunu xatırladır.

# Ermənistanda hərbçilər ayağa qalxdı

*Əvvəli 1-ci səh.*



“Joxovurd” qəzeti yazır ki, müharibə zamanı döyüş mövqelərini özbaşına tərk edən və ya qaçan əsgərlər bu günlərdə dindirilməyə çağırılır. Bununla belə, onların barəsində həbs qərarı çıxarmaq müstəntiqlər üçün çətindir. Onlar verdikləri ifadələrində deyirlər ki, müharibəyə yollananda döyüşməyə hazır idilər. Amma göydən od yağdığı, dostlarının göz önündə yanıb kül olduğu bir vaxtda qaçmaqdan başqa yolları qalmırdı. “Bizim başqa yolumuz yox idi, qaçmağa məcbur idik. Nə etməliydik? Ölməli idik?”- deyə onlar bildirirlər. Fərari erməni hərbçilərinin əksəriyyətinin ifadəsi bu məzmundadır.

Onu da qeyd edək ki, müharibə vaxtı Ermənistan ordusunun əsgər və zabitləri arasında çox böyük uçurumun olduğu da üzə çıxıb. Ümumiyyətlə, Ermənistanda zabitlərin əsgərlərə qarşı davranışlarının nizamnamədən uzaq olması məlum idi. Məhz buna görə də qeyri-döyüş şəraitində ölən erməni əsgərlərinin sayı-hesabı yoxdur. “4rd.am” saytı yazır ki, İkinci Qarabağ müharibəsində döyüşlərin birində zabitlərin nizamnamədən kənar davranışına dözməyən əsgərlər qiyam qaldırıblar. Bunun səbəbi hərbi hissənin Karamanyan familiyalı zabitinin əsgərlərdən birini təhqir etməsi olub. Yüzlərlə əsgər onun müdafiəsinə qalxıb və döyüş bölgəsini özbaşına tərk ediblər. Yolda onları komandir saxlayıb və dilə tutaraq geri qaytara bilib. Lakin daha sonra zabitlər döyüşdən imtina edən əsgərləri sıraya düzərək onların arasından 15 nəfərini seçiblər. Hərbi formalarını cırıblar, silahlarını əllərindən alaraq alçaldıblar. Əsgərlərin isə fərarilik etməkdən başqa şansları qalmayıb.

Adı gizli saxlanılan fərari erməni hərbçilərdən biri qeyd edib ki, hakimiyyət müharibədə əsgər ölümlərinin qarşısını almaq üçün tədbir görmək əvəzinə yeni ölümlərə şərait yaratdı: “Hansı əsaslarla biz hərbçiləri Qarabağı qorumağa aparırlar və niyə orada öldürürlər? Bizim ora aparılmağımız tamamilə qanunsuzdu”.

Bu ifadələri dinləyən müstəntiqlər isə çıxılmaz vəziyyətdə qalıblar və hansı qərar çıxarmalı olduqlarını bilmirlər. Ona görə də barələrində cinayət işi qaldırılmış 10 mindən çox hərbçinin taleyi ilə bağlı hansısa qərarın qəbul ediləcəyi hələ aydın deyil.

Bu arada Ermənistan ordusu barədə daha bir biabırçı fakt ictimailəşib. Məlum olub ki, müharibədən əvvəl hərbi xidmətə göndərilənlər üçün formanı onların valideynləri alırmış. Və bu zaman imkanı yaxşı olan valideynlər övladlarına daha yaxşı, keyfiyyətli forma alıb göndərirmişlər. Xatırladaq ki, Ermənistan ordusunda təchizatın bərbad durumda olduğu, hərbi formaların çatışmadığı barədə faktlar əvvəldən də məlum idi. Elə Nikol Paşinyan da demişdi ki, Qarabağda xidmət edən oğlu tez-tez evə zəng vurub yemək istəyir. Çünki hərbi hissədə verilən yeməkləri yemək mümkün deyildi.

Ermənistan ordusunun biabırçı durumda olduğunu göstərən olayların sayı kifayət qədər çoxdur. Bununla bağlı erməni mediası daha bir məqama nəzər salaraq bildirir ki, hərbi hissələrdən birində müharibə vaxtı böyük oğurluğun üstü açılıb. İstintaq komitəsinin araşdırmaları nəticəsində məlum olub ki, müəyyən müddət ərzində hərbi hissəyə göndərilən əşyalar və tikinti materialları oğurlanıb. Oğurluğu həyata keçirməkdə ittiham olunan hərbi hissənin anbar rəisi Artaşes Ayvazyan məhkəmənin qərarı ilə nəzarətə götürülüb.

“İravunk” qəzeti yazır ki, 44 günlük müharibə müddətində orduda qanun pozuntularının baş alıb getdiyinin növbəti dəfə şahidi olublar: “Ölkəmizin hərbi-siyasi rəhbərliyi nə edəcəyini bilmir. Vahid mövqe, bitkin siyasi xətt yoxdur. Ermənistan hakimiyyəti indi ordu ilə bağlı nöqsanlarını və uğursuz qərarlarını pərdələməyə, zahirən nikbin açıqlamalarla ört-basdır etməyə çalışır. Bunun nəticəsidir ki, 44 günlük müharibədəki məğlubiyyət ölkəmizin və xüsusilə də ordumuzun mövqelərinin zəifliyini göstərdi. Suallar çoxdur, amma Paşinyan hakimiyyəti bu sualların hələ ki heç birinə cavab verməyib”.

Paşinyan da Qarabağdakı 44 günlük müharibənin səbəbləri və şərtləri ilə əlaqəli faktları toplamaq üçün komissiya yaradılması ilə bağlı sualı cavablandırıb. Komissiyanın yaradılması təşəbbüsü “Parlaq Ermənistan” Partiyasının lideri və eyniadlı parlament fraksiyasının rəhbəri Edmon Marukyan tərəfindən irəli sürülüb. Paşinyan isə bildirib ki, Marukyan bu mövzunu müzakirə etmək üçün dəvət olunub, ancaq gəlməyib. Onun sözlərinə görə, Qarabağ müharibəsi ilə bağlı bu və ya digər şəkildə mindən çox cinayət işi başlanıb.

Bütün bunlar bir daha erməni ordusunda hansı əhvali-ruhiyyənin hökm sürdüyünü aydın nümayiş etdirir. Bəli, müharibə cinayətkarlarının, hərbi quldurların qurduğu ordu başqa cür ola da bilməzdi. Həmin işğalçı ordunu isə ən layiqli şəkildə Azərbaycan Ordusu cəzalandırdı.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Beynəlxalq aləm

## Bayden bütün amerikalıların peyvəndlənəcəyinə söz verdi



ABŞ Prezidenti Co Bayden iyulun sonunadək, demək olar ki, bütün amerikalıların yeni tip koronavirusa qarşı peyvəndlənəcəyinə söz vermişdir. O, bu barədə Milli Səhiyyə İnstitutlarında (Merilend) çıxış edərkən məlumat vermişdir.

Baydenin dediyinə görə, o vaxtadək 300 milyon amerikalı üçün peyvənd dozaları almaq planlaşdırılır. O əlavə etmişdir ki, hazırda ABŞ-da zəruri miqdarda dərman ehtiyatı toplanmışdır. Bayden qeyd etmişdir ki, dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayanda ölkənin pandemiya ilə mübarizə planı yox idi.

Qeyd edək ki, 2019-cu il məlumatına görə, ABŞ-ın əhalisi 328,2 milyon nəfərdir.

## Kuba COVID-19-a qarşı öz vaksinlərini sınaqdan çıxarır



Kubanın “BioCubaFarma” Holdinqinin müəssisələrində ölkənin COVID-19-a qarşı hazırlanan dörd vaksindən ikisinin - “Soberana-02” və CIGB-66-nın sınaqdan keçirilməsi başlamışdır. Bu barədə yerli televiziya xəbər verir.

“Finli” Peyvənd İnstitutunun direktoru Visente Benkomo bildirmişdir ki, klinik sınaqlar yaxşı keçir, “Soberana-02” vaksininin 150 min dozası artıq istehsal edilmişdir. Ehtimal olunur ki, gələn ay sözügedən iki vaksinin son sınaq mərhələsi başlayacaq. Sınaqlar uğurla başa çatsa, “Soberana-02” aprel ayında geniş istifadəyə veriləcək.

Kuba hazırda yalnız klinik sınaqlar keçirir, kütləvi peyvəndləmə hələ başlamayıb. Bununla belə, adanın 11 milyon sakininin çoxunun cari ilin axırınadək peyvəndlənəcəyi gözlənilir.

## Çin “BBC World News”un yayımlanmasını qadağan etdi



Çin hakimiyyət orqanları “BBC World News” telekanalının ölkə ərazisində yayımlanmasına qadağa qoymuşdur. Pekinin fikrincə, telekanalın reportajları obyektivlik prinsipinə cavab vermir, Çinin milli maraqlarına və etnik həmrəyliyinə xələl gətirirdi. Bu barədə BBC xəbər verir.

BBC Çin hökumətinin qərarından məyus olduğunu bildirərək məlumat vermişdir ki, telekanal gələn il yayım üçün sifariş verməyəcək.

Məlumata görə, Çin telekanalın koronavirus və ölkənin qərbindəki Sincan muxtar rayonunda minlərlə müsəlmanın (uyğur və digər etnik qruplar) hüquqlarının pozulması barədə reportajlarından narazı qalmışdır.

## Pandemiya Britaniya iqtisadiyyatını vurdu

Ötən il Böyük Britaniyanın ÜDM-i 9,9 azalmışdır. Bu göstərici son 100 il ərzində rekord azalmadır.

Tənəzzülün əsas səbəbi yeni tip koronavirusun pandemiyası və ölkədə karantinin tətbiq edilməsidir. Nəticədə iqtisadi aktivlik kəskin şəkildə aşağı düşmüşdür.

Birləşmiş Krallığın Milli Statistika Xidmətinin ekspertləri qeyd edirlər ki, mövcud məhdudiyyətlərə baxmayaraq, keçən ilin dekabr ayında milli iqtisadiyyat bir qədər artmışdır - 1,2 faiz. Bu, 1970-ci illərdən bəri ÜDM-in qısa müddət ərzində iki rübdə iki dəfə azalmasının qarşısını almağa kömək etmişdir.

Britaniya iqtisadiyyatını Brexit də vurmuşdur. Ölkə ötən il fevralın 1-də Avropa İttifaqından çıxmışdır. Mütəxəssislər qeyd edirlər ki, Brexitdən iqtisadiyyata dəyən ziyan ildə 13 milyard dollara çata bilər.

## ABŞ Myanmanın fiziki və hüquqi şəxslərinə qarşı sanksiyalar tətbiq etdi

ABŞ Maliyyə Nazirliyi Myanmada vəziyyətlə əlaqədar bu ölkədə 10 fiziki və 3 hüquqi şəxsə qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə TASS Agentliyi xəbər verir.

Məhdudiyyətlərə məruz qalmış şəxslər arasında devrilmiş hökumətdə Birinci vitse-prezident vəzifəsini tutmuş Myin Sve və müdafiə naziri Seyn Vin də var. Sanksiya siyahısına düşənlərin ABŞ-dakı aktivləri dondurulacaq, Amerika vətəndaşlarının və ya şirkətlərinin onlarla biznes qurması qadağan ediləcək. ABŞ-ın maliyyə naziri Canet Yellen bildirmişdir ki, “myanmalı hərbçilər davranışlarını dəyişdirməsələr, onlara qarşı əlavə tədbirlər görməyə hazırıq”.


**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzi sanitariya-epidemioloji işlərinin kotirovka sorğusu üsulu ilə *satın alınmasını həyata keçirir***

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 22 fevral 2021-ci il saat 18:00-dək mərkəzin Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. (Telefon: (012) 525-50-26, daxili: 9234). Zərflər 23 fevral 2021-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 3 saylı Bakı DOST Mərkəzinin AZ1073 Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

# Azercell

## abunəçilərinin nəzərinə

Abunəçilərimizin tələbatlarını nəzərə alaraq fakturalı və fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün mövcud olan bütün "Sərbəst" tarif paketlərində daha əlverişli istifadə şərtləri təqdim edilməyə başlanılır. Belə ki, "Sərbəst" tarif paketləri çərçivəsində təqdim edilən ölkədaxili, şəbəkədaxili və tarifdaxili dəqiqələrin əvəzinə, ümumi ölkədaxili danışıq dəqiqələri təqdim edilməklə daha rahat və əlverişli istifadə imkanı yaradılır. Bu da abunəçilərə həm bütün istiqamətlərdə daha rahat danışmaq, həm də nömrənin balansını daha rahat nəzarətdə saxlamaq imkanı verəcək. Bundan başqa, "Sərbəst" tarif paketləri çərçivəsində təqdim edilən internetdən istifadə imkanı da daha əlverişli olacaq. Yenilənmiş "Sərbəst" tarif paketlərində "Facebook Messenger" və "WhatsApp"da 1GB həcmində pulsuz yazışma imkanı təqdim edilməklə yanaşı, ümumi internetdən istifadə həcmləri də artırılmışdır. Dəyişikliklər mövcud "Sərbəst" tarif paketindən 30 günlük cari istifadə müddətindən sonrakı növbəti yenilənmədən başlayaraq tətbiq ediləcək.

Qeyd: Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT 1:** "Aztelekom" MMC tərəfindən tələb olunan FO, TPP tipli kabellər və naqillərin satın alınması

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 (Əlaqələndirici şəxs: Faiq Mustafayev, tel: (012) 344-00-00 (372); e-mail: **faiq.mustafayev@aztelekom.az**) ünvanından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı: 1500 manat**

**Müəssisənin adı:** **"Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi:** **AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan:** **AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı:** **Azərpoçt MMC PF 1**
**Kodu:** **691011**
**Bankın VÖEN-i:** **9900037711**
**Müxbir hesab:** **AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK:** **AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 01 mart 2021-ci il saat 17:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 16 mart 2021-ci il saat 17:00-dək Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına ("Aztelekom" MMC-nin Tender komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır

İddiaçıların təklifləri 17 mart 2021-ci il saat 12:00-da Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - "Aztelekom" MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" elektrik deposunda avtomobil dayanacağında oda davamlı membranın quraşdırılması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə "PLT Business" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 11.02.2021-ci il tarixdə ƏDV daxil 8 640,43 (səkkiz min altı yüz qırx manat 43 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 12 yanvar 2021-ci il tarixdə "MP106 və MP306 tipli Paudraad SMART kart tipli sayğacların kart oxuyucularının" satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT üzrə "MEQAPLUS FİRMASI" qalib elan olunmuşdur.

Qalib təkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Sığorta" ASC 28.01.2021-ci il tarixdən yeni ünvanda fəaliyyət göstərəcək.

28.01.2021-ci il tarixdən "Bakı Sığorta" ASC-nin baş ofisi Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti, 62 ünvanında, Sığorta Hadisələrinin Tənzimlənməsi xidməti isə Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi, 15 ünvanında xidmət göstərəcəkdir.

***Rəhbərlik***

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

### *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Ağcabədi Meliorasiya İdarəsi 2021-ci il üçün

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu. Müqavilənin tələb olunan yerinə yetirmək müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Vəli Famil oğlu Baxışov

*Ünvan: Ağcabədi şəhəri, İsmət Qayıbov, 41*
*E-mail: baxiwov71@mail.ru*
*Tel.: 050-382-17-20, iş: (02127)-5-53-67*

Tender 4 (dörd) LOT üzrə keçiriləcək.

**LOT-1.** Mexanizmlər və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması
**LOT-2.** Mal-materialların satın alınması
**LOT-3.** Kanalların lil və çöküntüdən təmizlənməsi
**LOT-4.** Əsaslı təmir işləri

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT-1 üzrə 50 (əlli) manat, LOT-2 üzrə 50 (əlli) manat, LOT-3 üzrə 50 (əlli) manat və LOT-4 üzrə 50 (əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**H/h: AZ31CTRE00000000000002355402**
**VÖEN: 3400098091**
**Bank: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41 NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.*
*2. Tender təklifi (tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **04.03.2021-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **15.03.2021-ci il saat 18:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **16.03.2021-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin davam etdirilməsi məqsədilə tələb olunan dezinfeksiyaedici məhlulların alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**LOT- 1.** Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin davam etdirilməsi məqsədilə tələb olunan dezinfeksiyaedici məhlulların alınması

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər (əlaqələndirici şəxs - Əhməd Məmmədov, tel.: 496-52-05).

**İştirak haqqı 200 (iki yüz) manatdır.**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Təşkilat - Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır və ödənişlər ancaq "ASAN ödəniş" vasitəsilə həyata keçirilməlidir.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının müvafiq sahədə fəaliyyət göstərməsinə icazə verən lisenziya;*

*iddiaçının bu sahədə peşəkarlığını əks etdirən məlumatlar:*

- *əsas işçi heyəti və idarəetmə aparatında çalışanların ixtisasları və iş təcrübələri barədə məlumat;*
- *iddiaçının texniki imkanları (inzibati və istehsalat sahələri, nəqliyyat vasitələri və digər avadanlıqları) barədə məlumat;*
- *son 3 ildə iddiaçı tərəfindən icra edilmiş oxşar layihələr barədə məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri **04 mart 2021-ci il saat 11:00-a,** tender təklifi ilə bank zəmanəti sənədlərini isə **15 mart 2021-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **16 mart 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələrilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır. Tenderdə yalnız "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsində göstərilən meyarlara uyğun gələn iddiaçılar iştirak edə bilərlər.*

***Tender komissiyası***

## "Təmiz Şəhər" ASC

## dezinfeksiya, dezinseksiya və deratizasiya işlərinin satın alınmasına dair

### *təkliflər sorğusu həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 464-41-11 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 16 fevral 2021-ci il saat 15:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, AZ1025, Xocalı pr. 55.**

***Tender komissiyası***

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5200
Sifariş 270
Qiyməti 40 qəpik